26.II.14.

## Azərbaycanı gələcəyə aparan lider

# HEYDƏR ƏLİYEV




ZAMAN Azərbaycan

Qurduğumuz Əsrlərlə Qalsın !


















spark
beton













SPARK MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ/SPARK LIMITED LIABILITY COMPANY
www.sparkbeton.com

AZ 1029, Azərbaycan, Bakı şəhəri, İsaqzadə qəsəbəsi, 10-cu Köndələn küçəsi
Tel: (+994 12) 514 26 44,514 26 64 Fax: (+994 12) 566 98 36

Az 2014/237



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

*Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük dahi şəxsiyyət dünya şöhrətli siyasətçi, fenomen insan, böyük zəka sahibi, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etmək olan, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər, ümummilli liderimiz HEYDƏR ƏLİYEVİN əziz və unudulmaz xatirəsinə ithaf olunur...*












Heydər Əliyevin zirvəyə gedən həyat yolu 5

Dövləti maraqların müdafiə strategiyası 7

Heydər Əliyev və insan hüquqları 12

Milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsi 16

Dövlət siyasətinin prioritet istiqamətləri 20

Heydər Əliyev-90: iqtisadi dinamizmin təməlləri 24

"Ölkəmizdə su təchizatında ən böyük işlər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilib" 28

Heydər Əliyev və Təhsil 31

Təhsilimizə "Çağ" əmanəti 33

Ana dilimizə sədaqətlə 36

"Yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək" 38

Azərbaycanlıların birliyinə nail olunması 40

Dünya liderləri Heydər Əliyev haqqında 57



**Baş direktor**
Süleyman Ünal
s.unal@zaman.az

**Redaktor**
Anar Qaraxançalı
a.qaraxancalli@zaman.az

**Reklam şöbəsinin müdiri**
Arif İbiş
a.keysan@zaman.az

**Marketinq şöbəsinin müdiri**
Mehmet Şimşek
m.simsek@zaman.az

**Dizaynerlər**
Samir Salmanov
Farid İsrafilov

UNVAN
Bakı, Tbilisi prospekti 1058-ci məhəllə, ev 34.

İNDEKS: AZ 1078
TEL-FAKS: (012) 530 85 81/82
e-mail: info@zaman.az

ZAMAN
www.zama




# Lider, özü kimi olandır


**Süleyman Ünal**
"Zaman-Azərbaycan" qəzetinin baş direktoru


Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar hazırladığımız bu xüsusi nəşrin ulu öndərin ölkə və millətə bəxş etdiklərini tam əhatə etməyəcəyini yaxşı bilirik.

Liderlər özü kimi olan insanlardır.

Liderlik sonradan qazanılan bir keyfiyyət deyil. Rəhbərlik bacarığı doğuşdan gəlir, təlim və təcrübə ilə təkmilləşir. Liderlər lider olaraq doğulurlar. Siyasi, sosial, iqtisadi, mədəniyyət, idman kimi bir çox sahədə mərhum Heydər Əliyevin imzasını bu gün də müşahidə etmək mümkündür.

Lider ağıllı, mədəniyyətli, cəsarətli, əliaçıq, ehtiyatlı, səbrli, mərhəmətli, məsuliyyətli, şirindilli, anlayışlı, qonaqpərvər, analiz qabiliyyəti olan, prinsipli, dözümlü, insanların fikrini dinləyən, natiq, bilikli, vəfalı, arif, özünə inamlı, enerjili, cəmiyyətin rifahı üçün çalışan, yenilikçi, keçmişdən dərs çıxardan, siyasəti bilən, yüksək əxlaqi dəyərlərə sahib bir insan deməkdir.

Rəhbər sahib olduğu cəsarəti sadəcə özündə saxlamamalı, onu ətrafındakı insanlara ötürməyi bacarmalıdır. Heydər Əliyev 20 Yanvar hadisələri və Dağlıq Qarabağ məsələsində SSRİ-nin ikiüzlü siyasətinə etiraz edərək, kommunist partiyasını tərk etməklə sahib olduğu cəsarəti bütün dünyaya nümayiş etdirdi.

Ulu öndərin yubileyi ilə bağlı hazırladığımız bu nəşri oxuduqca Heydər Əliyevin bir liderə xas bütün keyfiyyətlərə sahib olduğunun bir daha şahidi olacaqsınız. Mən qısa xatırlatmalarla ümummilli lideri yad etməyə çalışacağam.

Heydər Əliyev Azərbaycanı qarşısına çıxan bütün maneələrdən uğurla keçirmiş, inkişafı üçün əlindən gələni etmiş, gələcək nəsillərin qürur duyacağı bir dövlətə çevirmiş və sağlam təməllərlə özündən sonrakılara təhvil vermişdir.

Ulu öndər hakimiyyətə gələn kimi ilk olaraq Azərbaycanı bölməyə çalışan seperatçı qüvvələri ortadan qaldırdı. Birlik və bərabərliyin rəhbərlikdən başladığını söyləyən Heydər Əliyev xalqın milli bərabərliyini təmin etdi. "Milləti millət edən ən başlıca amil bir vətən və bir torpaq anlayışıdır", - deyən dahi lider vətən və millət

anlayışlarının bir olduğunu vurğulayırdı. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv seçilməsinə nail olan Heydər Əliyev bu təşkilatda ölkənin təklənməsinin qarşısını almış, Ermənistana olan dəstəyi kəsmişdi.

H. Əliyev ölkədə insan hüquqlarının qorunması üçün vətəndaş cəmiyyətinin təşkili və demokratik inkişaf yolunda hüquqi, sosial və siyasi təməllərin formalaşması üçün bir sıra adımlar atmışdı. Misal olaraq, insan hüquqları və hüquq dövlətinin 12 noyabr 1995-ci ildə qəbul edilən ilk Konstitusiya ilə zəmanət altına alınmasını göstərmək olar. Bundan əlavə, 1998-ci ildə qəbul edilən qanun layihəsi və 2001-ci ildə İnsan Hüquqları üzrə Konvensiyaya qoşulması bu sahədə atılan uğurlu adımlardandır. "Mən həmişə fəxr etmişəm, bugün də fəxr edirəm ki, mən azərbaycanlıyam", deyən ulu öndər bütün dünyada azərbaycanlıların hüquqlarının qorunması və diaspor şəklində birləşməsi üçün əlindən gələni etmişdir. Məhz Heydər Əliyevin sayəsində bugün erməni lobbisi qarşısında güclü Azərbaycan diasporu var.

Heydər Əliyev dil mövzusunda çox həssas idi. "Hər bir millətin dili ona çox əzizdir", deyən ümummilli lider yeri gəldikcə Azərbaycan dilinin zənginliyi və gözəlliyini dilə gətirərdi. Hətta 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə təşkil olunmuş tədbirdə H. Əliyevin Azərbaycan dilində çıxışı hamının təəccübünə səbəb olmuşdu. SSRİ-nin qılıncının kəskin olduğu bir dövrdə hakimiyyət nümayəndəsinin rəsmi tədbirdə öz dilində çıxış etməsi böyük cəsarət tələb edirdi.

Heydər Əliyev milli musiqinin, mədəniyyətin unudulmaması üçün çox çalışırdı. Sovet hökuməti dövründə də, müstəqillik illərində də mədəniyyət sahəsinə, incəsənət xadimlərinə qayğı və diqqətlə yanaşan ulu öndər "Yüksək mədəniyyətə malik olan xalq daim inkişaf edəcək", deyərdi.

Ümummilli liderin apardığı uğurlu siyasət nəticəsində iqtisadiyyat güclənmiş, neftin yalnız ölkə mənafeyinə xidmət etməsi üçün gələcəyə yönəlmiş bir sıra strateji addımlar atılmışdı. Məhz Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində Bakı-Tiflis-Ceyhan neft kəməri kimi bir çox layihələr uğurla həyata keçmiş, əcnəbi iş adamları ölkəyə dəvət edilmiş, keçid dövrü yaşayan ölkədə iqtisadi dirçəlişə nail olunmuşdur.

Heydər Əliyevin təhsilə ayırdığı diqqət isə daha mühüm yerə sahibdir. O, "Təhsil millətin gələcəyidir", deyərək bu sahədə atılan bütün adımları dəstəkləyirdi. H. Əliyevin 1992-ci ilin dekabr ayında türk liseylərinin açılmasına dair sərəncam verməsi və ömrünün sonuna kimi bu məktəbləri dəstək verməsi təhsilə verdiyi əhəmiyyətin ən böyük sübutu idi.

Heydər Əliyevin dünya səviyyəsində əvəzsiz bir lider olması vəfatından sonra ölkə rəhbərlərinin dilə gətirdiyi xatirələr və fikirlərlə bir daha öz təsdiqini tapdı. Rusiya Prezidenti Vladimir Putinin ulu öndər barəsində söylədiyi "Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət adamı idi", fikir buna misaldır.

Liderlik xüsusiyyətlərindən biri də, liderin sahib olduğu məqsədə, hədəfə əvvəl ətrafını, daha sonra cəmiyyəti inandırmasıdır. Azərbaycanın keçmişi və bugününə nəzər yetirdikdə mərhum Heydər Əliyevin bu yolda müvəffəq olduğunu görmək mümkündür.

Liderlərin cəmiyyətlərin tarixən yaşayan ümumbəşəri sərvətləri olduğununun unudulmaması arzusuyla...

# Heydər Əliyevin zirvəyə gedən həyat yolu



Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Na-

**19 - 22 dekabr -** Fransa Respublikasına səfər. Bu səfər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi xarici ölkəyə ilk rəsmi səfəri idi.

**23 - 24 dekabr -** MDB üzvü olan ölkələrin dövlət başçılarının görüşündə iştirak etmək üçün Aşqabadda səfər edib.

**Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.**

zirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti birinci sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, onun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

**Əziz Mustafa**

**1994**

**8 - 11 fevral** - Türkiyə Respublikasına rəsmi səfər.

**22 - 25 fevral** - Böyük Britaniyada rəsmi səfərdə olub və "Əsrin müqaviləsi" ilə bağlı danışıqlar aparıb.

**6 - 11 mart** - Çin Xalq Respublikasında rəsmi səfərdə olub.

**14 - 15 aprel** - Moskvada MDB dövlət başçılarının zirvə toplantısında iştirak edib.



# Dövləti maraqların müdafiə strategiyası

Hər bir dövlətin beynəlxalq aləmdə özünə layiq yerlərdən birini tutması ilk növbədə onun öz maraqlarının ən yüksək səviyyədə təmin etməsindən asılıdır. Bu baxımdan 20-ci əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini əldə edən Azərbaycan üçün dövlət maraqlarının ən yüksək səviyyədə təmin edilməsi ilk günlərdən zərurət kimi meydana çıxdı. Çünki həmin dövrdə Azərbaycan Ermənistanın işğaçılıq siyasəti ilə üz-üzə qalmışdı. Belə bir vəziyyətdə ölkəmizin dövlət maraqlarını beynəlxalq səviyyədə müdafiəsi üçün təcrübəli siyasətçiyə ehtiyac duyurdu. Belə bir siyasətçi isə hələ SSRİ dövründə beynəlxalq aləmdə kifayət qədər tanınan dövlət xadimi Heydər Əliyev oldu.

Qeyd edək ki, hələ ötən əsrin 80-ci illərinin ortalarında Heydər Əliyev SSRİ-nin dağılacağını uzaqgörənliklə söyləmişdi.

Həmin dövrdə SSRİ-nin dağılmasının qarşısıalınmaz proses olduğunu dönə-dönə qeyd edən Heydər Əliyev 1991-ci il mart ayının 7-də Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı çıxışında: "SSRİ-nin dağılacağı və müstəqil Azərbacanın dövlətinin qurulması labüddür. Biz milli maraqlarımızı, milli dövlətçilik ənənələrimizi nəzərə alaraq yeni müstəqil dövlət quruculuğuna hazırlaşmalıyıq",-dedi.

Azərbaycan üçün ən ağır və taleyüklü bir dövrdə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə dövlət maraqlarımızn beynəlxalq səviyyədə təmininə yönələn bir sıra tədbirlər həyata keçirdi. İlk növbədə Azərbaycan daxilindəki bəzi separatçı gücləri zərərsizləşdirərək ölkəmizin parçalanması təhlükəsini aradan qaldıran Heydər Əliyev bunun ardınca dövləti maraqlarımızın təmininə yönələn bəzi addımlar atdı. Bu müstəvi də də Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olmamasından istifadə edən Ermənistanı bəzi güclərin dəstəyindən məhrum etmək üçün Heydər Əliyev uzaqgedən siyasi bir gediş edərək ölkəmizin adı çəkilən quruma üzv olmasına nail oldu. Bu, Azərbaycanı təcavüzkar dövlətə münasibətdə daha çevik siyasət yürütməsinə və təcavüzkarın yeni

**3 - 5 may** - Belçikada NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaq haqqında müqavilə imzalayıb.

**9 iyun** - İstanbulda ABŞ-ın dövlət katibi U. Kristoferlə görüşüb.

**29 iyun - 2 iyul** - İran İslam Respublikasında rəsmi səfərdə olub.

**9 - 12 iyul** - Səudiyyə Ərəbistanında rəsmi səfərdə olub.



işğalçılıq siyasətinin qarşısının alınmasında önəmli rol oynadı. 1994-cü ildə Ermənistanla atəşkəs haqqında sülh sazişi imzalamaqla Heydər Əliyev Azərbacanın dövlət maraqlarına cavab verən daha bir addım atdı. 1994-cü il sentyabr ayının 20-də Xəzərin neft və qazla zəngin strukturlarının işlənməsi ilə bağlı beynəlxalq şirkətlərlə əsrin müqaviləsi adını alan anlaşma imzalamaqla Heydər Əliyev ölkəmizin yaxın 50 il ərzində bölgənin ən aparıcı və güclü dövlətinə çevrilməsinə imkan verəcək bir gediş etdi. Bu Azərbaycanın beynəlxalq aləmdə dövləti maraqlarının müdafiəsinə yönələn ən güclü addımlardan biri idi.

Təsadüfi deyil ki, əsrin müqaviləsi anlşması imzalanandan sonra ABŞ prezidentinin milli təhlükəsizlik üzrə keçmiş müşaviri, Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri məşhur siyasi xadim Zbiqnev Bjezinski: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir", -demişdi.

Heydər Əliyevin həmin dövrdə dövlət maraqlarımızın möhkəmlnməsinə xidmət edən tədbirlərindən biri də Türkiyə ilə Azərbaycanın daha da yaxınlaşması yönündə atdığı addımlar oldu. Bu müstəvidə də Heydər Əliyevin Azərbaycanla Türkiyəni "bir millət - iki dövlət" adlandırması iki qardaş ölkənin birlik ideyasına çevrildi. Bu da eyni kökə malik olan Türkiyə ilə Azərbaycan arasında maraqların məharətlə uzlaşdırılmasında Heydər Əliyevin olduqca önəmli rol oynamasıdır. Əlbəttə, dövlətlər arasındakı münasibətlər milli köklərə söykənir, amma milli maraqların üzərində inkişaf edir. Onun üçün də milli maraqların uzlaşdırılması eyni kökə və eyni soya malik olan xalqlar üçün tarixi önəm daşıyır. Heydər Əliyev bunu çox yaxşı anlayırdı və bölgədə düşmən əhatəsində olan bu iki qardaş xalqın taleyinin məhz milli maraqların uzlaşdırılmasında olduğunu mahir bir strateq kimi çox yaxşı anlayırdı. Həmin dövrdə bəzi beynəlxalq güclər Azərbaycanla Türkiyənin yaxınlaşmasına hər vasitə ilə mane olmağa cəhd edir və müxtəlif şantajlara əl atırdılar. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycanla Türkiyənin milli maraqlarının uzlaşdırılmasına və hər iki dövlətin beynəlxalq aləmdə vahid mövqedən çıxış etməsinə nail oldu. Azərbaycanın Avropa Şurasına üzv olması, ölkəmizdə ölüm hökmünün ləğv edilməsi və Dağlıq Qarabağ münaqişəsinin həlli yönündə Heydər Əliyevin beynəlxalq aləmdə həyata keçirdiyi tədbirlər dövlətçiliyimizin daha da möhkəmlənməsinə yol açdı.

Dünya Azərbaycanlılarının Birinci Qurultayının böyük müvəffəqiyyətlə keçirilməsi, onların milli özünüdərk və ümummilli ideya - azərbaycançılıq və milli dövlətçilik, milli-mənəvi dəyərlər ətrafında birləşməsi, diasporumuzun güclənməsi və formalaşması istiqamətində mühüm addım oldu.

**4 - 6 sentyabr** - BMT-nin təşkil etdiyi "Dünya əhalisi və inkişaf" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Misir Ərəb Respublikasına səfər edib.
**8 - 9 sentyabr** - MDB-yə üzv ölkələrin dövlət və hökumət başçılarının Moskva görüşlərində iştirak edib.
**25 - 30 sentyabr** - BMT-nin Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da səfərdə olub.




2001-ci ilin avqustunda İran İslam Respublikasının Hərbi Dəniz Qüvvələri Xəzər dənizində Azərbaycanın su sərhədlərini pozdu və ölkəmizin varlığı üçün təhlükə əmələ gəldi. Belə bir taleyüklü dövrdə Heydər Əliyev milli maraqlarımızı qorumaq və qonşu ölkədən gələn təhlükə ilə bağlı olduqca cəsarətli bir qərar qəbul etdi: Onun Türkiyə rəhbərliyi ilə əldə etdiyi razılığa əsasən qardaş ölkənin hərbi hava qüvvələrinə məxsus təyyarələr uzaq bir məsafə qət edərək ölkəmizə gəldilər. Onların Bakı və Xəzər dənizi üzərində simvolik güc nümayiş etdirməsi qarşı tərəfə edilən xəbərdarlıq siqnalı oldu. Beləliklə, Azərbaycanın başı üzərini alan təhlükə sovuşmuş oldu. Amma bu yeganə hadisə deyildi.

**"Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Milli ideolgiyamızda milli dövlətçilik və milli mənəvi dəyərlərimiz əsas yer tutur".**

Azərbaycan müstəqilliyini əldə edəndən sonra müxtəlif ölkələr bundan bölgədə öz maraqlarının təmin edilməsi üçün istifadə etməyə çalışır və bizimlə qonşu ölkələr, o cümlədən bölgədə marağı olan digər dövlətlər arasında qarşıdırma yaratmaq, Azərbaycan ərazisini müxtəlif cəbhədə dayanan güclərin toqquşma meydanına çevirməyə çalışırdılar. Belə bir vəziyyətdə Heydər Əliyev Azərbaycanın milli maraqlarının etibarlı şəkildə müdafiəsinə imkan verən və xarici siyasətimizin ən prioritet sahəsinə çevrilən tarazlaşdırıcı siyasət yeritməyə başladı. Bu, yaranmış vəziyyətdə Heydər Əliyev tərəfindən həyata keçirilən və xarici siyasətimizin ana xəttinə çevrilən olduqca uğurlu və uzaqgedən bir siyasi gediş idi. Həmin dövrdə Heydər Əliyev: "Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun". Hadisələrin sonrakı gedişi ulu öndərin uzaqgörənliyinin növbəti dəfə təsdiqləmiş oldu. Məhz tarazlaşdırıcı siyasətin reallaşdırılması ölkəmizin milli maraqlarının beynəlxalq səviyyədə etibarlı şəkildə müdafiəsində önəmli rol oynadı və bu, beynəlxalq aləm tərəfindən təqdirlə qarşılandı.

Yürütdüyü xarici siyasətin milli maraqlara və bəşəri dəyərlərə söykənməsi, habelə terrorçuluqla mübarizənin dəstəklənməsi və bu işdə xüsusi fəallıq göstərilməsi Azərbaycanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldərək, onu sivil dövlətlər səviyyəsinə qaldırdı.

Təsadüfi deyil ki, Eduard Şevardnadze "Keçmiş və gələcək fikir. Memuarlar" kitabında yazır: "Heydər Əliyev Azərbaycan tarixinə Azərbaycanı müstəqil dövlət olaraq dirçəltmiş bir dövlət xadimi kimi daxil oldu".

Yeni Azərbaycan Partiyasının 6-cı ilinə həsr olunmuş yığıncaqda Heydər Əliyev: "Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Milli ideologiyamızda milli dövlətçilik və milli mənəvi dəyərlərimiz əsas yer tutur".

Heydər Əliyev dövlət tərəfindən həyata keçirilən və ölkəmizin dövləti maraqlarına xidmət edən addımların dəstəklənməsində vətəndaş təəsübkeşliyinin xüsusi mənəm daşıdığını vurğulayırdı. O: "Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin", -deyirdi. (Heydər Əliyev. Müstəqillik yolu. Bakı, "Azərbaycan Universiteti", 1997, səh. 20.)

Ulu öndər müxalifətdə və iqtidarda olmasından asılı olmayaraq ölkəmiz üçün taleyüklü məsələlərdə hamını birliyə çağırırdı. O: "Kim müxalifətdə dursa-dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın"- deyirdi.

Azərbaycanın dövlət maraqlarının beynəlxalq səviyyədə təmini ilə bağlı Heydər Əliyev tərəfindən həyata keçirilən ən böyük tədbirlərdən biri də onun dünya azərbaycanlılarını bir araya gətirməsi oldu. Heydər Əliyevin imzaladığı sərəncamla 2001-ci il noyabr ayının 9-10-da Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultaydakı çıxışında Heydər Əliyev Azərbaycanın milli dövlətçilik maraqlarının qlobal səviyyədə müdafiəsinə hesablanmış bu məşhur sözlərini söylədi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

2002-ci il iyul ayının 5-də Heydər Əliyev Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında fərman imzaladı. Həmin ilin dekabr ayında isə Heydər Əliyevin təşəbbüsü ilə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanun qəbul edildi. Bu, ümummilli liderin Azərbaycanın milli maraqlarının beynəlxalq səviyyədə müdafiəsi uğrunda apardığı mübarizəsinin zirvəsi idi.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Əziz Mustafa

**18 - 19 oktyabr** - Türkdilli dövlət başçılarının II zirvə toplantısında iştirak etmək üçün İstanbulda olub.

**21 - 22 oktyabr** - Moskvada MDB dövlət başçılarının görüşündə iştirak edib.

**1 - 2 noyabr** - Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Türkiyədə keçirilən tədbirlərdə iştirak edib.

**17 - 18 noyabr** - Moskvada işgüzar səfərdə olub.


*Heydər Əliyevin adı və əməlləri Azərbaycanın tarixində daim yaşayacaq və xatirəsi hər zaman ehtiramla yad olunacaqdır.*

**İSTANBUL ÇARŞI**
since 1994 in Azerbaijan
making visions reality
Aluminium Group - Building Solutions

Farklılıklar yaratarak kalıcı üstünlüklerle ileriye...

FENİŞ ALÜMİNYUM · REYNAERS · sapa: buildingsystem · AKAPEN ALPOLIC® · Dierre · Henkel · dyo dyo inks · G-U BKS LOCTITE




**AZERBAIJAN**
İstanbul Çarşı Import & Export Ltd
Bayil,Neftchiler Ave. 14 Baku Azerbaijan
Tel: +99 412 498 02 42, 498 20 86
Fax: +99 412 498 20 73
E-mail: pazarlama@istanbulcarsi.com
www.istanbulcarsi.com

**AZERBAIJAN**
İstanbul Çarşı Import & Export Ltd
Factory: Bayil,Emek St.9 Baku Azerbaijan
Tel: +99 412 498 22 62, 491 78 63
Fax: +99 412 491 78 63
E-mail: infofabrika@istanbulcarsi.com
www.istanbulcarsi.com

**AZERBAIJAN**
İstanbul Çarşı Import & Export Ltd
Showroom: 28 May St. 20 Baku Azerbaijan
Tel: +99 412 498 98 58, 498 79 29
Fax: +99 412 498 79 29
E-mail: 28may@istanbulcarsi.com
www.istanbulcarsi.com

**TURKEY**
Fatsa Dış Tic. İnş. ve Tur. LTD
Tersane cad.Musluk sk. No:1/4 Karaköy İstanbul
Tel: +90 0212 252 60 30/31
Fax: +90 0212 252 82 98
E-mail: fatsa@fatsadis.com
www.fatsadis.com

**GEORGIA**
Geo Construction Ltd
4 Giorgi Tsabadze St. Tbilisi Georgia
Tel: +995 32 35 65 02
Fax: +995 32 35 65 03
E-mail: info@geoconstruction.ge
www.geoconstruction.ge

**ALGERIE**
Istanbul Construction
Sari Istanbul PVC & Aluminium
12 Cooperative Amel 3 Dely Brahim, Algerie
Tel: +213 21 37 48 23
E-mail: info@istanbulcons.com
www.istanbulcons.com

# Heydər Əliyev və insan hüquqları



Ötən əsrin 40-cı illərindən başlayaraq insan hüquqlarının ən yüksək səviyyədə təmin edilməsi sivil inkişafın qaçılmaz zərurəti kimi gündəmə gəldi. Bu baxımdan 1948-ci il dekabr ayının 10-da qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi ilə insan hüquq və azadlıqlarının təmini sahəsində yeni bir mərhələnin əsası qoyuldu. Beləliklə, əsas insan haqları - yaşamaq, azadlıq, bərabərlik, mülkiyyət və təhlükəsiz yaşamaq hüquqları demokratik ölkələrin başlıca məqsədinə çevrildi.

Bəşəriyyətin yeni inkişaf dövrünə qədəm qoyduğu XXI əsrdə də hər bir ölkənin sivil, demokratik inkişafı ilk növbədə onun insan hüquq və azadlıqlarına necə əməl etməsindən, demokratik dəyərlərə sadiqliyindən asılıdır. Bu müstəvidə də müasir dünyanın ictimai-siyasi və sosial-iqtisadi inkişafının əsasında insan hüquqlarının yüksək səviyyədə təmin edilməsi dayanır. Bütün bunları nəzərə alaraq dövlət müstəqilliyini qazandıqdan sonra Azərbaycan da demokratik inkişaf yolu ilə irəlilədiyini bəyan etmiş, insan hüquq və azadlıqlarının yüksək səviyyədə təminatı məsələsini özünün mühüm vəzifələrindən biri elan etmişdir.

Azərbaycanda insan hüquqlarının qorunması, qanunların hamı üçün aliliyinin təmin edilməsinin əsası Heydər Əliyevin ötən əsrin 60-cı illərinin sonlarında Azərbaycana rəhbərlik etməyə başlamasından sonra qoyuldu. Ulu öndər Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən sonra bütün diqqətini ölkədəki qanun pozuntularının qarşısının alınmasına, insan hüquqlarının qorunmasına yönəltdi. Heydər Əliyevin o dövrdəki insan hüquqlarının qorunmasına və qanunçuluğun möhkəmləndirilməsinə yönəldilən fəaliyyəti ilə əlaqədar bir önəmli və tarixi faktı xatırlatmaq istəyirik:

1969-cu il avqust ayının 5-i. Bakıda Azərbaycan KP MK-nin plenumu keçirilir. Çıxış üçün söz AZ. KP. MK-nın I katibi Heydər Əliyevə verilir. Ulu öndər çıxışında Azərbaycanın gələcəyinin ölkədə qanunların aliliyinin və insan hüquqlarının yüksək səviyədə təmin edilməsindən asılı olacağına diqqəti cəlb edərək: "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü biruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bizim işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə oduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar",-dedi.

Zaldan alqış sədaları qopur. Bu da əsassız deyildi. Çünki Heydər Əliyevə kimi ölkəni idarə edənlərin heç biri sosializm sisteminin əsas dayaqlarından biri olan hüquq-mühafizə orqanlarının və digər idarəetmə strukturlarının fəaliyyətini belə kəskin şəkildə tənqid etməyə özündə cəsarət tapa bilməmişdi. Amma Heydər Əliyev cəsarətlə idarəetmə strukturları və hüquq mühafizə orqanlarının bəzi yüksək səviyyəli rəsmilərinin insanların hüquqlarının kobud şəkildə pozulmasına yol açan fəalliyyətlərini tənqid etdi. Bununla da Heydər Əliyev ölkəmizdə insan hüquqlarının müdafiəsi, qanunların aliliyinin qoruması məsələsini dövlətçilik fəaliyyətinin əsas prioritet sahələrindən birinə çevrimiş oldu. Qanunların aliliyinin və insanların hüquqlarının daha yüksək səviyyədə təmini məqsədi ilə Heydər Əliyev ötən əsrin 70-ci illərində, hələ imperiyanın qılıncının qabağının da, dalının da kəsdiyi bir vaxtda "Qoy ədalət zəfər çalsın!" şüarını irəl sürdü. Həmin dövrdə SSRİ-də sistemdən narazı insanlar arasında dissident hərəkatı get-gedə güclənməkdə idi. Belə bir vaxtda "Qoy ədalət zəfər çalsın!" şüarını irəli sürmək əslində rejimə qarşı çıxanları, onların SSRİ-də insan hüquqlarının kobud şəkildə pozulması ilə bağlı dediklərini dəstəkləmək demək idi. Heydər

**Ulu öndər Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən sonra bütün diqqətini ölkədəki qanun pozuntularının qarşısının alınmasına, insan hüquqlarının qorunmasına yönəltdi.**

Əliyev Moskvanın buna sərt reaksiya verəcəyini bilsə də, heç nədən çəkinmədən haqqın və ədalətin bərpasını, insan hüquqlarınn qorunmasını özünün ali və müqəddəs vəzifələrindən birinə çevirdi.

Heydər Əliyevin Azərbaycanda insan hüquqlarının qorunması, ədalətli cəmiyyət uğrunda apardığı mübarizəsini həmin dövrdə hüquq fakultəsinə qəbulla bağlı qəbul etdiyi müdrik və uzaqgörən qərar da sübut edir. Xatırladaq ki, 70-ci illərdə bəzi vəzifəli şəxslər Azərbaycan Dövlət Universitetinin ( indiki Bakı Dövlət Universiteti) hüquq, tarix və şərqşünaslıq fakultələrini öz monopoliyalarına alaraq ora imkansız ailələrdən çıxan gənclərin daxil olmasına imkan vermirdilər. Bunu görən Heydər Əliyev sadə, zəhmtkeş ailələrdən çıxan istedadlı gənclərin hüquq, şərqşünaslıq və tarix fakultələrinə qəbuluna imkan yaratmaq üçün vəzifəli şəxslərin övladlarının adı çəkilən fakultələrə qəbuluna qadağa qoydu. Bu isə öz növbəsində cəmiyyətimizdə böyük sevinclə qarşılanaraq yüzlərlə istedadlı, ancaq imkansız gəncin adı çəkilən fakultələrə qəbul olunmasına və onların pozulmuş hüquqlarının bərpasına yol açdı.

Üstündən illər ötəndən sonra, 2000-ci il iyun ayının 22-də Azərbaycan mətbuatının yaradılmasının 125 illiyi ilə bağlı keçirilən yubiley toplantısındakı çıxışında ulu öndər o illəri xatırlayaraq: "70-ci illərdə hüquq fakultəsinə hər il 50 nəfər qəbul olunurdu. Mən bir dəfə baxıb gördüm ki, hüquq fakultəsinə qəbul olunanların 95 faizi prokurorun, məhkəmə sədrinin, nazirin oğludur və sairə. Yaxşı belə çıxır ki, atası prokuror, sonra oğlu, sonra da nəvəsi prokuror olacaq. Bəs başqa ailələrdən olan istedadlı gənclər necə olsun? Bəzilərinin heç atası yoxdur, bəs o hüquq fakultəsinə necə daxil olsun? O vaxt, hüquq, tarix, şərqşünaslıq fakultələri çox modda idi. Mən vəzifədə olan şəxslərin, xüsusən hüquq-mühafizə orqanlarında-milisdə, prokurorluqda və sairədə çalışan şəxslərin uşaqlarının bu fakultələrə qəbul olunmasını qadağan etdim. Bu, cəmiyyətdə çox böyük əhvali-ruhiyyə yaratdı. Mən bunu millətimizə görə etdim",-demişdi.

Bütün bunları isə Heydər Əliyevin o dövrdə insan hüquqlarının qorunması və qanunların aliliynin təmin edilməsi sahəsində apardığı şərəf dolu mübarizəsinin zirvəsi hesab etmək olar.

Bir sözlə, həmin dövrdə ümummilli lider dərin zəkası, qeyri-adi idarəçilik keyfiyyətləri ilə, qanunçuluğu, insan hüquqlarını qorunmasını təmin etmək və bu yolla dövlətçilik ənənələrini yeni zirvələrə qaldırmaqla, Azərbaycanın gələcəkdə müstəqilliyi üçün zəruri hüquqi baza formalaşdırmış oldu.

1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycanda qanunçuluğun pozulmasının qarşısının alınması və insan hüquqlarının bərpası oldu.

Ulu öndər 1994-cü il avqust ayının 9-da "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" fərman imzaladı. Bununla da Azər-

**4 - 7 dekabr** - ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının toplantısında iştirak etmək üçün Budapeştdə olub.
**12 - 16 dekabr** - Mərakeşin Kasablanka şəhərində keçirilən İKT-nin dövlət başçılarının VII sammitində iştirak edib.

**1995**
**27 - 31 yanvar** - İsveçrədə keçirilən Davos Ümumdünya İqtisadi Forumunun işində iştirak edib.

**9 - 10 fevral** - MDB ölkələri dövlət başçılarının növbəti toplantısında iştirak etmək üçün Alma-Atada olub.
**10 - 12 mart** - Kopenhagendə BMT-nin sosial inkişaf məsələlərinə həsr olunan beynəlxalq forumunda iştirak edib.
**17 - 18 aprel** - Avropa Birliyinin rəhbərliyi ilə görüşmək üçün Brüsseldə səfərdə olub.

baycanda insan hüquqlarının qorunması sahəsində yeni, şərəfli bir dövr başladı.

Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarılıb. İlk dəfə olaraq həmin Konstitusiyanın maddələrinin üçdə bir hissəsi məhz insan hüquq və azadlıqlarını özündə ehtiva edir. Bu konstitusiyanı insan hüquqlarının qorunması, qanunların aliliynin bərpa edilməsi və dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından Heydər Əliyevin şah əsəri adlandırmaq olar.

Azərbaycanda insan hüquqlarının qorunması sahəsində Heydər Əliyev tərəfindən həyata keçirilən uğurlu tədbirlər sonrakı illərdə də davam etdirildi. Bu müstəvidə də ulu öndər 1998-ci il fevral ayının 10-da Azərbaycanda ölüm hökmünün ləğv edilməsi barədə sərəncam imzaladı. Bununla da Şərqdə qadınlara ilk seçki hüququ verən, ilk dəfə respublika üsul-idarəsi quran Azərbaycan həm də Şərqdə ölüm hökmünü qadağan edən ilk dövlət kimi tarixə düşdü.

Ulu öndər ölüm hökmünü ləğv etməklə bəşəri humanizmə və beyənxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirdi. Təsadüfi deyil ki, məşhur siyasi xadim Zbiqnev Bjezinski 1998-cı ildə etdiyi çıxışlarının birində: "Heydər Əliyev zəngin dövlətçilk və idarəetmə təcrübəsi əsasında qısa müddətdə Azərbaycanda insan hüquqlarının ən yüksək səviyyədə təmin edilməsinə nail olub", -demişdi.

1998-ci il fevral ayının 22- də isə Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzaladı. Bu sənədin əsasında Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş ilk "İnsan hüquqlarının müdafiəsinə.dair Dövlət Proqramı" qəbul olundu.

Bu, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi xidmət edən ən önəmli sənədlərdən biri hesab edilir.

2001-ci ilin dekabrın 25-də Azərbaycan Respublikası Avropa insan hüquqları konvensiyasını təsdiq etdi.

2001-ci il dekabr ayının 28-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu qə-



bul olundu. Bu sənəd Azərbaycanda insan hüquqlarının beynəlxalq hüquq prinsipləri əsasında müdaifə edilməsinin daha bir sübutu oldu.

24 avqust 2002-ci ildə referendum yolu ilə Konstitusiyaya edilən əlavə və dəyişikliklərin bir qismi məhz insan hüquq və azadlıqlarının məzmununun genişləndirilməsinə xidmət edirdi.

**Hüquqi dövlət quruculuğu yeni zirvələrə daşınır**

İlham Əliyev Prezident seçildiyi ilk günlərdən insan hüquqlarının təmini ilə bağlı bir sıra tədbirlər həyata keçirməklə ulu öndərin yolunu yüksək səviyyədə davam etdirəcəyini nümayiş etdirdi.

İham Əliyev tərəfindən həyata keçirilən kompleks tədbirlər nəticəsində şəxsiyyətin toxunulmazlığı, söz, mətbuat, vicdan azadlığı, bütün vətəndaşların bərabər hüquqlara malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributlarına çevrilib.

Prezidentin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" qəbul edildi. Bu sənəd 30-dan artıq dövlət orqanları qarşısında insan hüquqlarının qorunması sahəsində mühüm vəzifələr qoyub. Prezident İlham Əliyevin digər bir sərəncamı ilə isə 18 iyunun Azərbaycanda İnsan Hüquqları Günü elan olundu. Bütün bunlar da respublikamızın insan hüquqlarının və azadlıqlarının yüksək səviyyədə qorunması məsələsini prioritet sahəyə çevirdiyini və insan hüquqlarının təminati məsələsinin Azərbaycan dövlətinin ali məqsədi oldugunu bir daha təsdiqləyir.

Əziz Mustafa

**6 - 7 may** - Londonda faşizm üzərində qələbənin 50 illik yubileyinə həsr olunan şənliklərdə iştirak edib.

**8-9 may** - Parisdə faşizm üzərində qələbənin 50 illik yubileyinə həsr edilən tədbirlərdə iştirak edib.

**9-10 may** - Moskvada Böyük Vətən müharibəsində qələbənin 50 illik yubileyi münasibətilə keçirilən tədbirlərdə iştirak edib.




ASYA TÜRK



Ailəvi Türk Restoranı

*Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*



**Ünvan: R. Behbudov küç. 17, Tel: (+994 12) 498 91 32, Mob: (+994 50) 632 67 57**

# Milli dövlətçilik ənənələrinin möhkəmləndirilməsi



"Yeni qurulan hər bir dövlətin ömrünün uzun olmasını onun qurucusu olan liderlərin siyasi dühası müəyyən edir" **Corc Vaşinqton**

Hər bir dövlətin varlığı və uzunömürlülüyü onun əsasını qoyan liderlərin bu işin öhdəsindən necə gəlmələrindən asılıdır. Təsadüfi deyil ki, ABŞ və dünya tarixində özünəməxsus şərəfli iz buraxmış Corc Vaşinqton çıxışlarının birində: "Yeni qurulan hər bir dövlətin ömrünün uzun olmasını onun qurucusu olan liderlərin siyasi dühası müəyyən edir",- deyib. Bu baxımdan qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan da istisna deyil. Hələ eramızdan əvvəllər Azərbaycanın şimalı və cənubunda qurulan dövlətlər bəşəri sivilizasiyaya öz töhfələrini verib. Orta əsrlərdə dövlətçilik ənənələrimiz müdrik dövlət xadimi olan Şah İsmayılın simasında daha da inkişaf etdirilmişdi. Bu çərçivədə 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət idi və onun təməllərinin də əsasında məhz qədimlərdən günümüzə qədər gəlib çıxan milli dövlətçilik ənənələrimiz dayanırdı. Amma müstəqilliyi əldə etmək asan olmasa da, onu qoruyub saxlamaq və möhkəm təməllər üzərində inkişaf etdirmək daha çətindir. Təsadüfi deyil ki, Almaniyanın məşhur dövlət xadimi Otto Bismark deyib: "Müstəqilliyi əldə etmək asan deyil, ancaq müstəqilliyi qoruyub saxlamaq və sivil dövlət qurmaq ondan dəfələrlə çətindir". Bu baxımdan ötən əsrin 90-cı illərinin ilk illərində yenidən müstəqilliyini əldə edən və tarixdən gələn dövlətçilik ənənələri üzərində sivil və yeni bir dövlət quran Azərbaycanın bəxtinin gətirdiyini desək, bəlkə də səhv etmərik. Çünki həmin dövrdə Azərbaycanın ötən əsrin ən mahir dövlət xadimlərindən biri hesab edilən, eləcə də Qərbdə və Şərqdə kifayət qədər tanınan məşhur dövlət xadimi Heydər Əliyev kimi böyük oğlu vardı.

O dövrdə, əvvəlcə, Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinə, 1969-cu ildən sonra isə respublikamıza rəhbərlik edən Heydər Əliyev ölkəmizin müstəqil dövlətçilik ənənələrinin yeni müstəvidə inkişaf etdirilməsində, milli mənlik şüurunun oyanışında, gələcəkdə müstəqilliyini əldə edəcək dövlətimiz üçün milli kadrların, o cümlədən zabit heyətinin hazırlanmasında əvəzsiz xidmətlər göstərdi.

**29-30 iyun** - Bolqarıstan Respublikasında işgüzar səfərdə olub.

**30 iyun** - Rumıniyada keçirilən Qara dəniz hövzəsi ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının toplantısında iştirak edib.

**8-9 avqust** - Qazax mütəfəkkiri Abayın 150 illik yubileyində iştirak etmək üçün Alma-Atada olub.

**27-29 avqust** - Bişkekdə "Manas" dastanının 1000 illik yubiley tədbirlərində və Türkdilli dövlət başçılarının toplantısında iştirak edib.

Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpa olunması və dövlətçilik ənənələrinin yeni şəraitdə inkişaf etdirilməsi ilə bağlı apardığı gizli mübarizəyə aydınlıq gətirən çoxsaylı faktlardan bir neçəsinə diqqəti cəlb etmək istəyirik.

1976-cı il. Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı. Tanınmış dramaturq İlyas Əfəndiyevin "Natəvan" əsərinin ilk premyerası gedir. Premyerada Azərbaycan SSR Kommunist Partiyasının I katibi Heydər Əliyev və digər yüksək səviyyəli dövlət rəsmiləri də iştirak edirlər. Tamaşanın bir yerində Natəvan rolunu oynayan xalq artisti Amalya Pənahova üzünü salona tutaraq qəhrəmanın dili ilə: "Biz müstəqil Azərbaycanı mütləq görəcəyik",- deyir. Zalda oturan yüksək səviyyəli dövlət rəsmiləri özlərini itirərək çaşqınlıq içində bir-birlərinin üzlərinə baxırlar. Yalnız Heydər Əlyevin simasında qəribə bir razılıq var və o, heyran-heyran tamaşaya baxmaqda davam edir. Bunu görən digər dövlət rəsmiləri də rahat nəfəs alırlar.

Əslində bu sözlərin imperiyanın qılıncının dalının da, qabağının da kəsdiyi bir dövrdə deyilməsi və üstəlik bunu Azərbaycanın başında dayanan rəhbər tərəfindən nəinki sakitliklə qarşılanması, hətta tamaşadan sonra onlara öz rollarını yüksək səviyyədə ifa etmələrinə görə təşəkkür etməsi Heydər Əliyevin milli dövlətçililiyimizin inkişaf etdirilməsinə nə qədər böyük dəyər verdiyini göstərir.

1978-ci ildə qəbul edilən Azərbaycan SSR-in Konstitusiyasında Heydər Əliyev uzaqgörən bir addım atdı. Onun təşəbbüsü ilə o dövrdəki Konstitusiyamızda Azərbaycan dili dövlət dili elan edildi. Bu, həmin dövrdə dövlətçiliyimizin bərpasına doğru atılan olduqca cəsarətli bir addım, onun dilinin, milli dövlətçilik ənənələrinin inkişaf etdirilməsinə Heydər Əliyev tərəfindən göstərilən əvəzsiz xidmət idi. Əgər o dövrdə Heydər Əliyev bu məsələdə Kremlin qarşısında geri çəkilsəydi və dilimiz dövlət dili kimi konstitusiyamızda əksini tapmasaydı, onda respublikamızın rayonlarında belə rəsmi səviyyədə yazışmalar rus dilində gedəcəkdi. Bu isə milli, mənəvi, dövlətçilik ənənələrimizin qorunub saxlanılmasında ən güclü silah olan dilmizin ölməsinə, millət kimi milli varlığımızın itirilməsinə və tarixin səhnəsindən məhv olaraq çıxmağımıza, milli faciələrimizə aparıb çıxaracaqdı.

Ötən əsrin 80-ci illərinin əvvəllərində Moskvaya yüksək vəzifəyə irəli çəkiləndən sonra Heydər Əliyev Azərbaycanın milli dövlətçilik maraqlarını daha yüksək səviyyədə müdafiə etməyə başladı. Məhz onun Moskvada yüksək vəzifədə olduğu illərdə ermənilər Dağlıq Qarabağın ilhaqı niyyətlərini dilə gətirə bilmədilər.

1990-cı ilin yanvar ayının 20-də isə baş verən qanlı faciəyə görə, Heydər Əliyev Qorbaçovun yeritdiyi qanlı siyasəti kəskin şəkildə pislədi.

Azərbaycan və SSRİ rəhbərliyinin mane olmasına baxmayaraq, Heydər Əliyev çətinliklə də olsa, 1990-cı ilin iyul ayının 20-də Bakıya qayıtdı. Buradan isə o, Naxçıvana getdi. Naxçıvanda xalq tərəfindən ruh yüksəkliyi ilə qarşılanan Heydər Əliyev həmin il Naxçıvan MR Ali Sovetinin deputatı seçildi. Bundan sonra yenidən bütün diqqətini Azərbaycanın milli dövlətçiliyinin bərpasına yönəldən Heydər Əliyevin tələbi ilə Naxçıvan MR-nin adından "Sovet Sosialist" sözləri götürüldü.

**Yenidən hakimiyyətə qayıdışından az sonra ulu öndər parlamentdəki iclaslarından birində: "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm",- demişdi.**

1991-ci il sentyabr ayının 1-də Heydər Əliyev Naxçıvan MR Ali Sovetinin sədri seçildi. Bundan sonra Azərbaycanın dövlət müstəqilliyinin və milli dövlətçilik ənənələrini bərpası uğrunda daha qətiyyətlə hərəkət edən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın müstəqilliyinin mühüm atributlarından olan üçrəngli dövlət bayrağı Naxçıvan Ali Məclisinin üzərində dalğalanmağa başladı. Nəhayət, Heydər Əliyevin tələbi ilə imperiya qoşunları Naxçıvanı tərk etməyə məcbur oldu. Bu isə de-fakto olaraq Naxçıvanda Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması demək idi.

**20-26 oktyabr** - BMT-nin 50 illiyi ilə əlaqədar ABŞ -da səfərdə olub.

**28 noyab-5 dekabr** - Böyük Britaniyaya və Fransaya işgüzar səfər edib.

**1996**

**10-11 yanvar** - Parisdə işgüzar səfərdə olub.

**17-19 yanvar** - MDB ölkələri Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Moskvada olub.



97937
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



### Azərbaycan dövlətçiliyi möhkəmləndirilir

1991-ci ilin payızında Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində Heydər Əliyevin mühüm rolu oldu. Lakin 1992-1993-cü illərdə Azərbaycanın başı üzərini yenidən dövlət müstəqilliyini itirmək təhlükəsi aldı. Belə bir vəziyyətdə 1993-cü ilin iyun ayında Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. O, dərhal Azərbaycanın başı üzərini alan təhlükənin aradan qaldırılması və dövlət müstəqilliyimizin bir də əldən verlməməsi üçün bütün gücünü səfərbər etdi. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan Ali Məclisinin sədri seçildi. Bununla da Azərbaycanın müstəqil dövlətçilik ənənələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi və onun dünya dövlətləri sırasında öz layiqli yerlərindən birini tutması sahəsində yeni bir mərhələ başladı. İlk növbədə Azərbaycanın dövlət müstəqilliyi üçün gələn təhlükələri aradan qaldıran Heydər Əliyev bununla da Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi istiqamətində ən önəmli tədbirlərdən birini həyata keçirdi. Eyni zamanda Ermənistanın təcavüzü ilə bağlı yaranan təhlükənin də aradan qaldırılması istiqamətində mühüm addımlar atıldı.

Hakimiyyətə qayıdışından az sonra ulu öndər parlamentdəki iclaslarından birində: "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm",- demişdi.

Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində 1994-cü ilin mayında Ermənistanla atəşkəs barədə razılıq əldə edildi. 1994-cü ilin sentyabr ayının 20-də isə xarici ölkələrin neft şirkətləri ilə Xəzərin neft və qazla zəngin strukturlarının işlədilməsi barədə "Əsrin müqaviləsi" adlı tarixi sənəd imzalandı. Bununla da Azərbaycanın iqtisadi cəhətdən daha da inkişaf etdirilməsinə və onun təhlükəsizliyinin təmini üçün daha uğurlu tədbirlər həyata keçirməyə imkan verdi. Xəzər neftini dünya bazarına nəqlinə imkan verən Bakı-Tbilisi-Ceyhan neft, həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinə verilən daha bir töhfə oldu.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə keçirilən ümumxalq referendumunda qəbul edilən yeni Azərbaycan Konstitusiyasında müəyyən edilən siyasi və hüquqi prinsiplər respublikamızın dövlətçilik ənənələrinin daha da inkişaf etdirilməsinə yeni təkan verdi və ölkəmizin beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirdi.

Bir sözlə, hakimiyyətdə olduğu dövrlərdə ulu öndər Heydər Əliyev həyatını Azərbaycanın dünya birliyində tanınan, seçilən dövlət kimi görmək kimi müqəddəs bir amala həsr etdi. Təsadüfi deyil ki, İlham Əliyev 2003-cü ildə keçirilən prezident seçkilərində qalib gəldikdən sonra keçirilən andiçmə mərasimində: "Müdrik Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan dövləti bundan sonra da güclənəcək, zənginləşəcək və inkişaf edəcəkdir",- dedi.

Bu gün Azərbaycan müstəqil dövlət kimi inamla xoş gələcəyə doğru gedir və Heydər Əliyev tərəfindən möhkəm təməlləri qoyulan müasir Azərbaycan dövlətinin əbədiyyətə qədər öz müstəqilliyini bir daha əldən verməyəcəyi şübhə doğurmur.

**Əziz Mustafa**

**8 - 10 mart** - Gürcüstana rəsmi səfər edib.

**9 - 11 aprel** - Pakistana isgüzar səfər edib.

**22 aprel-3 may** - Belçika, Lüksemburq və Norveçə səfər edib.

**24 - 27 aprel** - Norveçədə rəsmi səfərdə olub.





# Dövlət siyasətinin prioritet istiqamətləri

Heydər Əliyev milli maraqların müdafiəsini dövlət siyasətinin prioritet istiqamətinə çevirdi. Hər bir müstəqil dövlətin öz varlığını beynəlxalq səviyyədə qoruyub saxlaya bilməsi onun özünün milli maraqlarını necə müdafiə etməsindən və buna uyğun olaraq on illər sonraya hesablanan xüsusi dövlət siyasətinin möhkəm təməllərini qoymasından asılıdır. Təsadüfi deyil ki, ötən əsrin ən görkəmli siyasətçilərindən olan məşhur dövlət xadimi Uinston Çörçill çıxışlarının birində: "Hər hansı bir dövlətin güclü və qüdrətli olması onun öz milli maraqlarını ən yüksək sviyədə təmin etməyə qadir bir siyasət yeritməsindən asılıdır", - deyib. Bu baxımdan 1991-ci ildə yenidən dövlət müstəqilliyini əldə edən Azərbaycan üçün milli maraqların müdafiəsinin dövlət siyasətinin prioritet, aparıcı sahəsinə çevrilməsi ilk günlərdən ölkəmiz üçün taleyüklü bir məsələ kimi qarşıya çıxdı. Həmin dövrdə Ermənistan addım-addım Azərbaycan ərazilərini işğal etməyə başladı. Bununla da Azərbaycan fəlakətə sürükləndi və ölkə yenidən öz müstəqilliyini itirməsi təhlükəsi ilə üz-üzə qaldı. Belə bir vəziyyətdə Azərbaycanı gözlənilən fəlakətdən və yenidən imperiyanın əsarəti altına düşməsi təhlükəsindən yalnız ölkənin milli maraqlarını yüksək səviyyədə təmin etməyə qadir olan mahir bir dövlət xadimi xilas edə bilərdi. Belə bir siyasətçi və dövlət xadimi isə uzun illər Azərbaycana rəhbərlik edən və vaxtilə SSRİ kimi qüdrətli bir dövlətdə ən yüksək vəzifələrdən birini tutan Heydər Əliyev oldu. Ümummilli liderin siyasəti milli maraqlar üzərində qurulmuşdu.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqların təmini üzərində inkişaf etdirildi.

#### Milli maraqların müdafiəsinin mahir memarı

Ötən əsrin 40-50-ci illərində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsində şərəfli bir yol keçən, 1967-ci ildə, əvvəlcə, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə irəli çəkilən, 1969-cu ildən isə ölkəmizə rəhbərlik edən Heydər Əliyev milli maraqlarımızın nəinki ittifaq səviyyəsində, həm də beynəlxalq müstəvidə müdafiə edilməsində, milli mənlik şüurunun oyanışında əvəzsiz xidmətlər göstərdi. Bununla da o, imperiyanın qılıncının qabağının da, dalının da kəsdiyi bir dövrdə milli maraqlarımızın müdafiəsini dövlət siyasətinin prioritet sahələrindən birinə çevirərək, Azərbaycanın müstəqilliynə gedən yolunun əsaslarını qoydu.

Heydər Əliyevin Azərbaycanın milli maraqlarının müdaifəsi ilə bağlı apardığı mübarizəsinə aydınlıq gətirən çoxsaylı faktlardan birinə diqqəti cəlb etmək istəyirik.

1969-cu ilin noyabr ayı. Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) yaradılmasının 50 illik yubileyi keçirilir. Tədbirdə iştirak edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Heydər Əliyevə söz verilir. O, alqışar altında tribunaya çıxır və Azərbaycan dilində danışmağa başlayır. Hamını heyrət bürüyür. Çünki o dövrdə nəinki respublika rəhbərləri, hətta ali məktəb rəhbərlərinin öz çıxışlarını rus dilində etməsi yazılmamış bir qanun hesab edilirdi və ona görə də əksər yüksək vəzifə sahibləri milli dildə danışmağa cəsarət etmirdilər. Heydər Əliyev isə ana dilimizdə: "Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universiteti milli-mənəvi ənənələrə sadiq qalan, milli maraqlarımızı həmişə müdafiə edən yüksək səviyyəli kadrlarımızın hazırlanmasında əvəzsiz xidmətlər göstərib və göstərəcək",-deyir.

**Heydər Əliyevin Azərbaycanın milli maraqlarının müdaifəsi ilə bağlı apardığı mübarizəsinə aydınlıq gətirən çoxsaylı faktlardan birinə diqqəti cəlb etmək istəyirik. 1969-cu ilin noyabr ayı. Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) yaradılmasının 50 illik yubileyi keçirilir. Tədbirdə iştirak edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Heydər Əliyevə söz verilir. O alqışar altında tribunaya çıxır və Azərbaycan dilində danışmağa başlayır. Hamını heyrət bürüyür. Çünki o dövrdə nəinki respublika rəhbərləri, hətta ali məktəb rəhbərlərinin öz çıxışlarını rus dilində etməsi yazılmamış bir qanun hesab edilirdi və ona görə də əksər yüksək vəzifə sahibləri milli dildə danışmağa cəsarət etmirdilər.**

Beləliklə, Heydər Əliyev ana dilimizdə danışdığına görə Moskvadan özünə ediləbiləcək təzyiqlərdən çəkinməyərək, həmin dövrdə yüksək vəzifələr tutan rəsmilərimiz və ziyalılarımız arasındakı qorxu xofunu dağıtdı və ana dilimizə, milli varlığımıza nə qədər sədaqətli olduğunu sübut etdi.

Burada istər-istəməz Almaniyanın məşhur dövlət xadimi Otto Bismarkı xatırlamalı oluruq. Otto Bismark Almaniyanın gələcəyi ilə bağlı etdiyi çıxışlarından birində: "Hər bir millətin milli maraqlarının təminınə yol onun ana dilindən keçir",-demişdi.

Bu baxımdan Heydər Əliyev ana dilinə xüsusi önəm verməklə və onu milli maraqlarımızın təminində önə çıxarmaqla mahir bir siyasətçi olduğunu bir daha nümayiş etdirmiş oldu.

Heydər Əliyevin imperiya əsarəti altında belə milli maraqlarımızın müdafiəsini dövlət siyasətinin aparıcı sahəsinə çevirməsi 1978-ci ildə qəbul edilən Konstitusiyamız zamanı parlaq şəkildə üzə çıxdı. Həmin dövrdə SSRİ-ni idarə edənlər yeni konstitusiyamızda Azərbaycan dilinin dövlət dili kimi yazılmasına razı deyildilər. Bunu görən Heydər Əliyev olduqca incə bir siyasi gediş etdi. O, Azərbaycan SSR konstitusiyasında dövlət dilinin əksini tapması ilə əlaqədar respublika ictimaiyyəti nümayəndələrinin geniş toplantısını keçirdi. Müzakirələrdə çıxış edənlərin hamısı Azərbaycan dilinin dövlət dili kimi əks edilməsinin vacibliyini qeyd etdilər. Beləliklə, Heydər Əliyev məsələyə müdaxilə etmədən ictimaiyyət nümayəndələrinin çıxışları əsasında ana dilimizin konstitusiyamızda əksini tapmasına nail oldu. Bununla da Moskvanın məsələ ilə əlaqədar etirazının qarşısı ustalıqla alınmış oldu. Bu, Heydər Əliyev tərəfindən Azərbaycanın milli maraqlarının ən yüksək səviyyədə təmin edilməsinə və bunun dövlət siyasətimizin ana xəttinə çevrilməsinə verdiyi ən böyük töhfələrdən biri idi.

1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə irəli çəkilən Heydər Əliyev Azərbaycanın milli maraqlarının müdafiəsini və bu müstəvidə də milli dövlətçilik ənənələrimizin bərpası uğrundakı mübarizəsini Moskvada da davam etdirdi. Məhz onun Moskvada işlədiyi illərdə Azərbaycanın milli maraqlarının müdafiəsi uğrunda dönmədən apardığı mübarizə nəticəsində respublikamızda milli-azadlıq mücadləsinin yeni mərhələsinin əsasları qoyuldu.

1987-ci ilin oktyabr ayında Heydər Əliyev heç bir əsas olmadan SOV. İKP Siyasi Bürosunun üzvlüyündən kənarlaşdırıldı. Bununla əlaqədar Heydər Əliyev sonralar, 1995-ci il avqust ayının 16-da keçirilən Milli Məclisin iclasındakı çıxışında:

**17-20 may** - MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Moskvada səfərdə olub.

**1-4 iyul** - Almaniyaya işgüzar səfərə gedib.

**7-11 avqust** - Moskvada rəsmi səfərdə olub.

**21 oktyabr** - Daşkənddə Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edib.

**24-25 oktyabr** - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkə rəhbərlərinin Moskva görüşündə iştirak edib.

**2-3 dekabr** - ATƏT-ə üzv ölkələrin yüksək səviyyəli Lissabon sammitində iştirak edib.

**1997**

**13-15 yanvar** - Fransada rəsmi səfərdə olub.

**24-25 mart** - MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Ukraynada olub.

"1986-87-ci illərdə xidmət etdiyim dövlət siyasətinə müxalifətdə olmuşam. Məhz ona görə də 1987-ci ilin oktyabr ayında Siyasi Büronun tərkibindən kənarlaşdırıldım. Niyə? - Çünki mən Azərbaycanın milli maraqlarını müdafiə edirdim, xüsusən, milli siyasətlə, milli respublikalara qarşı aparılan siyasətlə razı deyildim. Azərbaycana olan münasibətlə razı deyildim, bunu açıq deyirdim".-demişdi.

**Bir-birinin ardınca xarici ölkələrin neft şirkətləri ilə Xəzərin neft və qazla zəngin strukturlarının işlədilməsi barədə "Əsrin müqaviləsi" adlı tarixi sənəd imzalanması, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınması ümummilli lider tərəfindən Azərbaycanın milli maraqlarının təmininə verilən daha bir töhfə oldu.**

### "Heydər Əliyev nə edəcəyini çox yaxşı bilir"

Azərbaycan üçün olduqca ağır günlərdə, 1993-cü ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə yenidən qayıdışı nəinki ölkə daxilində, həm də beynəlxalq aləmdə yüksək səviyyədə qarşılandı. Hər halda Heydər Əliyev kifayət qədər təcrübəyə malik bir dövlət xadimi idi və onun yenidən hakimiyyətə qayıdışının bölgədəki hərc-mərcliyin aradan qaldırılmasına önəmli şəkildə təsir göstərəcəyi şübhəsiz idi. Bununla belə, Qərbin bəzi dairələrində uzun illər SSRİ-də ən yüksək vəzifələrdən birini tutmuş Heydər Əliyevin yenidən keçmiş imperiyanın bərpası üçün cəhdlər edəcəyindən bir narahatlıq vardı. Üstəlik, həmin dövrdə Azərbaycan MDB-yə üzv olmağa hazırlaşırdı. Ona görə də Qərbin ali dairələri hələ 1979-cu ildə SSRİ imperiyasının dağılacağını uzaqgörənliklə söyləyən məşhur siyasətçi Zbiqnev Bzejinskinin Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə bağlı fikrini bilmək istəyirdi. 1993-cü ilin yayında Nyu-Yorkda keçirdiyi mətbuat konfransında Azərbaycanda baş verən hakimiyyət dəyişkliyi ilə bağlı suala cavabında Bzejinski: "Heydər Əliyev sivil dünyanın görkəmli siyasətçilərindəndir. O bu vəzifədə Azərbaycanın milli maraqlarına cavab verən, onun müstəqilliyinin daha da möhkəmlənməsinə xidmət edən önəmli tədbirlər həyata keçirəcək. Heydər Əliyev nə edəcəyini çox yaxşı bilir",-dedi və bununla da o, Qərbin bütün şübhələrinə son qoymuş oldu.

Həqiqətən, Bzejinski Heydər Əliyevin ölkəmizin milli maraqlarının qorunmasına xidmət edən və bu müstəvidə mahir bir şahmatçı kimi olduqca incə və hadisələri illərlə qabaqlayan bir gediş etdiyini çox gözəl anlamışdı. Hadisələrin sonrakı gedişi göstərdi ki, Azərbaycanın MDB-yə üzv olması, ilk növbədə, ölkəmizin milli maraqlarına zərbə vuracaq və Ermənistanı təktərəfli qaydada dəstəkləyəcək qurumdaxili qərarların qəbul edilməsinə nəinki mane oldu, həm də bu, təcavüzkarın postsovet məkanı və dünyada ifşası üçün əhəmiyyətli bir tribuna rolunu oynadı. Məhz Azərbaycanın MDB daxilində özünün milli maraqlarını ən yüksək səviyyədə müdafiə etməsi digər dövlətlər üçün də bir nümunə oldu və onları imperiyanın bərpasına xidmət edən bir sıra sənədləri imzalamaqdan çəkindirdi.

Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin mayında Ermənistanla atəşkəs barədə razılıq əldə edildi. Bundan sonra bir-birinin ardınca xarici ölkələrin neft şirkətləri ilə Xəzərin neft və qazla zəngin strukturlarının işlədilməsi barədə "Əsrin müqaviləsi" adlı tarixi sənədin imzalanması, Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınması ümummilli lider tərəfindən Azərbaycanın milli maraqlarının təmininə verilən daha bir töhfə oldu.

Heydər Əliyevin Azərbaycanın milli maraqlarının beynəlxalq səviyyədə təmininə yönələn xidmətlərindən biri də tarazlaşdırıcı siyasətin yeridilməsi oldu. Tarazlaşdırıcı siyasətin yeridilməsi Azərbaycanı müxtəlif dövlətlərin çəkişmə meydanına çevrilməsi təhlükəsindən xilas etdi.

Bir sözlə, hakimiyyətdə olduğu dövrlərdə ulu öndər Heydər Əliyev həyatını Azərbaycanın milli və ictimai maraqlarının yüksək səviyyədə müdafiəsinə, ölkəmizi dünyanın nüfuzlu bir dövlətinə çevrilməsi kimi müqəddəs bir amala həsr etdi.

Əziz Mustafa

**1997**

**4-8 may** - Türkiyə Respublikasına işgüzar səfərə gedib.

**13-14 may** - İqtisadi Əməkdaşlıq Təşkilatına (EKO) üzv olan ölkələrin dövlət başçılarının Aşqabad zirvə toplantısında iştirak edib.

**10-11 iyun** - Qazaxıstana səfər edib.

**18-19 iyun** - Özbəkistanda səfərdə olub.




TÜSİAB
AZERBAYCAN
1994
TÜRK SANAYİCİ VE İŞADAMLARI BEYNELHALK CEMİYETİ

**Türk dünyasının dahi oğlu, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə onun əziz və unudulmaz xatirəsini yad edir, Heydər Əliyev yolunun layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyevə uğurlar arzulayırıq.**



# Heydər Əliyev-90: iqtisadi dinamizmin təməlləri

1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkədə ictimai-siyasi sabitlik təmin olunub, istehsalda yaranan geriləmənin qarşısı alınıb və həyata keçirilən digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırılıb. Bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyulub. Böyük dövlətçilik təcrübəsinə sahib olan Heydər Əliyev çox qısa müddətdə ölkədə makroiqtisadi sabitliyə və dinamik iqtisadi inkişafa nail ola bilib. "Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb", - deyən Heydər Əliyev eyni zamanda bəyan edirdi ki, respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var: "Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan

**2-4 iyul** - Rusiya Federasiyasına işgüzar səfər edib.

**27 iyul-6 avqust** - ABŞ-da işgüzar səfərdə olub.

**26-28 avqust** - Polşa Respublikasına rəsmi səfərə gedib.

**25-28 sentyabr** - İtaliyaya işgüzar səfər edib.







çıxarmağa imkan verir. Digər tərəfdən, yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

1995-ci ildən başlayaraq iqtisadi inkişafın gerçəkləşməsi üçün bir çox irimiqyaslı siyasi-iqtisadi sənədlər (konsepsiya, strategiya və proqramlar) qəbul olunub. 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM-nin həcmi hər il orta hesabla 16,5% azaldığı halda, 1996-cı ildən başlayaraq ölkədə makroiqtisadi sabitliyə nail olunub. Belə ki, 1996-cı ildə ÜDM-in artım sürəti 1,3%, 1997-ci ildə 5,8%, 1998-2004-cü illərdə orta hesabla 10% təşkil edib. 2005-2010-cu illərdə isə real iqtisadi artım tempi müvafiq olaraq 26,4%, 34,5%, 25%, 10,8%, 9,3% və 5% təşkil edib. Ən böyük uğur isə təbii ki, 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" olub. Azərbaycan üçün həyati əhəmiyyəti olan bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunmasında, həm də xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynayıb.

#### Milli iqtisadiyyatımızın bünövrə daşı - "Əsrin Müqaviləsi"

Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artırılması ölkəmizin qarşılaşdığı iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasında əsas vasitələrdən biri hesab olunurdu. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını zərurətə çevirmişdi. 1994-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissələrinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Dövlət Neft Şirkəti ilə dünyanın inkişaf etmiş dövlətlərini təmsil edən neft şirkətləri arasında saziş imzalandı. Sonrakı illərdə Azərbaycanda neft-qaz sahəsində çoxlu əlamətdar hadisələrin olmasına, müxtəlif yataqlar və perspektiv strukturlar üzrə orta hesabla 30 sazişin imzalanmasına, yeni terminalların inşasına, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi boru kəmərlərinin işə salınmasına baxmayaraq, "Əsrin müqaviləsi" haqlı olaraq ölkənin iqtisadi siyasətinin əsasını təşkil edir. Belə ki, bu sənəd respublikanın bütün iqtisadiyyatının inkişafına təkan verib. "Əsrin müqaviləsi" hesabına Azərbaycan ölkə xaricində müxtəlif sahələrə sərmayələr yatıran investora çevri-

**9-10 oktyabr** - AŞ PA-nın sessiyasında iştirak etmək üçün Strasburqda səfərdə olub.

**22-23 oktyabr** - Kişinyovda MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib.

**8-11 dekabr** - İslam Konfransı Təşkilatına üzv ölkələrin dövlət başçılarının VII zirvə görüşündə iştirak etmək üçün Tehranda olub.

lib. Neft gəlirləri Gürcüstan, Türkiyə və digər ölkələrdə iri layihələrin həyata keçirilməsinə imkanlar açıb. Azərbaycan "Azəri-Çıraq-Günəşli"nin işlənməsi üzrə saziş sayəsində təkcə öz enerji təhlükəsizliyini deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində iştirak edib.

### Azərbaycan neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilir

Neft sənayesinə geniş sərmayə qoyuluşu, neft əməliyyatlarında müasir texnika və texnologiyaların tətbiqi nəticəsində 1999-cu ildə nəhəng "Şahdəniz" qaz-kondensat yatağı aşkar edildi. "Şahdəniz" qaz-kondensat yatağının aşkar edilməsi ilə əlaqədar XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və Azərbaycanın neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaradıldı. 2001-ci il martın 12-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı "Azərbaycanın təbii qazının Türkiyəyə tədarük edilməsinə dair Azərbaycan və Türkiyə arasında təbii qazın satışı və alışı haqqında müqavilə" imzalanıb.

### "Azəri light" markası dünya bazarlarına çıxarıldı

Neft marşrutlarının alternativliyi Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi asılılığına son qoymaqla yanaşı ölkəmizin milli mənafeyinə cavab verirdi. 1996-cı il martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze Tbilisidə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında üçtərəfli müqavilə bağlandı. Bakı-Supsa neft kəməri ilə ilkin Azərbaycan neftinin 1999-cu il aprelin 17-də ixrac olunmağa başlanıb. Bu marşrutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda "Azəri light" markası ilə dünya bazarına çıxarılmasıdır. Bununla yanaşı kəmərin digər üstünlüyü neftin Supsaya Novorossiyskə nisbətən daha ucuz nəql olunmasıdır.

**1999-cu il dekabrın 29-da ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" fərman imzalayıb. Fondun qarşısında qoyulan əsas məqsədlərdən biri neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılması və eyni zamanda bu gəlirlərdən ölkəmizin sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsidir.**

### Gələcək nəsillər də unudulmur...

Müstəqillik əldə etdikdən sonra iqtisadi sferada əldə etdiyimiz uğurlardan biri də Dövlət Neft Fondunun təşkil edilməsi oldu. 1999-cu il dekabrın 29-da ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" fərman imzalayıb. Fondun qarşısında qoyulan əsas məqsədlərdən biri neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılması və eyni zamanda bu gəlirlərdən ölkəmizin sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsidir. Açıqlanan son məlumata görə, artıq Fondda 33,2 milyard dollar həcmində valyuta ehtiyatları toplanıb.

### Kənd təsərrüfatı məhsulunun 99,8%-i özəl bölmədə istehsal olunur

Müstəqillik əldə etdikdən sonra həyata keçirilən ən uğurlu iqtisadi tədbirlərdən biri də özəlləşdirmə prosesi oldu. 1995-ci ildən etibarən ölkədə aparılan ardıcıl iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması təşkil edib. Artıq ölkə ərazisində torpaq və aqrar islahatlar başa çatıb. 1 milyon 695,1 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanıb, kolxoz və sovxozların yerində fermer təsərrüfatları təşkil olunub. Bu islahatların nəticəsi olaraq hazırda kənd təsərrüfatı məhsulunun 99,8%-i özəl bölmədə istehsal olunur. Özəlləşdirmənin həyata keçirilməsi ilə əlaqədar görülən tədbirlər nəticəsində ÜDM-də özəl sektorun xüsusi çəkisi artaraq, 1994-cü ildəki 29%-dən 2012-ci ildə 85%-ə çatıb.

### Ölkəmizdə torpaq islahatı 99,5% yerinə yetirilib

1991-ci ildən sonra qarşıda duran həlli vacib problemlərdən biri də torpaq islahatlarının aparılması idi. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadiyyat sisteminin dağılması digər respublikalar kimi, Azərbaycanı da ağır iqtisadi böhrana saldı. Respublikanı bu böhrandan çıxarmanın yeganə və düzgün yolu ölkə iqtisadiyyatını qısa müddətdə yeni iqtisadi əsaslarla bərpa etmək idi ki, bunun da həyata keçirilməsi üçün, ilk növbədə torpaq islahatları



aparılmalı idi. Aqrar sahə iqtisadiyyatın mühüm bir hissəsini təşkil edir və bu sahənin də inkişafının əsası aparılacaq torpaq islahatlarının nəticələrindən asılı idi. 1993-2003-cü illərdə Heydər Əliyevin təşəbbüsü ilə ölkədə aqrar islahatlar və onların mühüm tərkib hissəsi olan torpaq islahatları aparıldı. Torpaqlar pulsuz olaraq kəndliyə verildi və yeni torpaq-əkinçi münasibətlərinin formalaşması üçün real şərait yaradıldı. "Torpaq islahatı haqqında" 16 iyul 1996-cı il tarixli Qanun, "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" 22 dekabr 1998-ci il tarixli Qanun, "Torpaq icarəsi haqqında" 12 mart 1999-cu il tarixli Qanun, 25 iyun 1999-cu il tarixli Qanun ilə təsdiq edilən "Azərbaycan Respublikası Torpaq Məcəlləsi", "Torpaq bazarı haqqında" 7 may 1999-cu il tarixli Qanun da daxil olmaqla qəbul edilən 52-dən çox fərman, qanun və digər hüquqi normativ aktlar respublikamızda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli Fərmanından sonra islahatların sürətlə həyata keçirilməsi prosesi başladı. Torpaq islahatlarının başa çatdırılan birinci mərhələsində ölkədə mövcud olan 2 min 32 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək, onların əkinə yararlı münbit torpaqları əhaliyə paylanılıb. Hər bir subyektə verilən torpaq onlara mülkiyyət hüququnu təsdiq edən hüquqi sənəd, Dövlət aktları ilə rəsmiləşdirilib. Bu mərhələdə işğal olunan rayonlarımız istisna olmaqla ölkəmizdə torpaq payı almaq hüququ olan 873 min 618 ailədən 869 min 268-nə torpaq payı verilib. Bu isə 3 milyon 442 min 778 subyekt deməkdir. Ölkəmizdə torpaq islahatı 99,5% yerinə yetirilib.

**Aqrar sahə iqtisadiyyatın mühüm bir hissəsini təşkil edir və bu sahənin də inkişafının əsası aparılacaq torpaq islahatlarının nəticələrindən asılı idi. 1993-2003-cü illərdə Heydər Əliyevin təşəbbüsü ilə ölkədə aqrar islahatlar və onların mühüm tərkib hissəsi olan torpaq islahatları aparıldı. Torpaqlar pulsuz olaraq kəndliyə verildi və yeni torpaq-əkinçi münasibətlərinin formalaşması üçün real şərait yaradıldı.**

Allahverdi Cəfərov

**1998**

**13-14 fevral** - Türkiyə Respublikasına rəsmi səfərə gedib.

**23-28 fevral** - Yaponiyaya işgüzar səfər edib.

**3-6 mart** - Ukrayna Respublikasına rəsmi səfərə gedib.

**28-29 aprel** - Moskvada MDB-yə üzv ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edib.

**9-10 iyun** - Qazaxıstanın yeni paytaxtı Astanada Türkdilli dövlətlərin V zirvə görüşündə iştirak edib.

**19 - 24 iyul** - Böyük Britaniyada səfərdə olub.

**9-10 avqust** - Ukrayna Prezidenti L.Kuçmanın 60 illik yubileyi münasibətilə bu ölkədə səfərdə olub.

**31 oktyabr** - Türkiyə Cümhuriyyətinin 75 illik yubiley tədbirlərində iştirak edib.

# "Ölkəmizdə su təchizatında ən böyük işlər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilib"



"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov: "Ölkəmizdə su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması istiqamətində ən böyük işlər Azərbaycanın böyük dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etməsindən sonra həm Abşeron yarımadasının, həm də bölgələrin su təchizatının yeni inkişaf dövrü başlamışdır. 1970-80-ci illərdə Bakı şəhərinin içməli suya artan tələbatı ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Kür su kəmərləri sisteminin inşası və Ceyranbatan mənbəyinin genişləndirilməsi sayəsində həll edilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Bakının və Abşeron yarımadasının digər yaşayış məntəqələrinin keyfiyyətli içməli su ilə təmin olunması məsələsi yenidən aktuallaşmışdır. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması çox vacib məsələ olan su təchizatı probleminin həllinə yeni təkan vermişdir. Yaranmış problemləri həll etmək üçün böyük məbləğdə maliyyə vəsaiti tələb olunurdu və bununla bağlı Dünya Bankına, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankına müraciət olunmuşdur. 1990-cı illərin ortalarında təmin olunmuş siyasi sabitliyi nəzərə alan Beynəlxalq maliyyə qurumları "Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsi"nə 88,7 milyon dollar məbləğində güzəştli kreditin ayrılmasına qərar vermişlər. Məlumat üçün bildirək ki, Dünya Bankı belə bir qərarı keçmiş SSRİ respublikaları arasında ilk dəfə olaraq Azərbaycan üçün vermişdir. 1998-2005-ci illərdə həyata keçirilən həmin layihə paytaxt və ətraf qəsəbələrin su təchizatının yaxşılaşdırılmasına öz töhfəsini vermişdir.

**1999**

**16 - 29 yanvar** - Türkiyədə səfərdə olub.

**2-3 aprel** - MDB ölkələri dövlət başçılarının Moskva zirvə görüşündə iştirak edib.

**17 aprel** - Gürcüstan Respublikasına səfərə gedib.

**22 aprel-18 may** - NATO-nun 50 illik yubiley tədbirlərində iştirak etmək üçün ABŞ-a səfər edib.



Bakı şəhərinin su ilə təminatının yaxşılaşdırılmasında müstəsna əhəmiyyət daşıyan Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi ilə bağlı təşəbbüsün müəllifi də böyük dövlət xadimi Heydər Əliyev olmuşdur. 2007-ci ildə tikintisinə başlanmış və 2010-cu ildə istismara verilmiş Oğuz-Qəbələ-Bakı su kəməri Azərbaycanın müstəqillik illərində həyata keçirilmiş ən böyük infrastruktur layihəsidir və onun işə düşməsiylə Bakı şəhərində fasiləsiz su alan əhalinin xüsusi çəkisi 60 faizi keçmişdir.

**1990-cı illərin ortalarında təmin olunmuş siyasi sabitliyi nəzərə alan Beynəlxalq maliyyə qurumları "Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması layihəsi"nə 88,7 milyon dollar məbləğində güzəştli kreditin ayrılmasına qərar vermişlər.**

Bu gün ölkənin su təchizatı və kanalizasiya infrastrukturunun yaxşılaşdırılması dövlətimizin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir və Prezident İlham Əliyev bu sahənin inkişafına böyük diqqət və qayğı göstərir. Paytaxtla yanaşı, respublikanın regionlarında da su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə layihələr uğurla həyata keçirilir. Bu layihələr həm dövlət büdcəsi, həm də beynəlxalq maliyyə təşkilatlarından cəlb olunmuş vəsaitlər hesabına icra edilir. Ümumilikdə ölkənin 38 şəhər və rayon mərkəzi, həmçinin 350 kəndində layihələr həyata keçirilir ki, onlardan 24 şəhər və 280 kənddə işlər "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sifarişi əsasında icra edilir. Bu sahədə Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Almaniyanın KFW bankı, İsveçrənin SECO təşkilatı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Səudiyyə İnkişaf Fondu ilə sıx əməkdaşlıq edirik.

Təbiətin ən böyük nemətlərindən olan su, bəşəriyyət yarandığı gündən həyatın ayrılmaz hissəsi olmuşdur. Müasir dövrdə su öz fiziki və kimyəvi xüsusiyyətləri ilə məhdudlaşan çərçivəni aşaraq iqtisadi, siyasi, diplomatik münasibətlər sisteminin mühüm atributlarından birinə çevrilmişdir. Son yüzillikdə qlobal miqyasda su çatışmazlığı probleminin kəskinləşməsi su sektorunda beynəlxalq əməkdaşlığın genişləndirilməsini zəruri edir. 22 Mart - Dünya Su Günü ilə əlaqədar ənənəvi müraciətində BMT-nin Baş Katibi Ban Ki Mun dünyanın qlobal problemlərindən olan su çatışmazlığına diqqət çəkərək su təminatının yaxşılaşdırılmasını davamlı inkişafın əsas meyarlarından biri kimi dəyərləndirmiş və içməli sudan qənaətlə istifadə olunması üçün tədbirlərin görülməsini vacib hesab etmişdir.

Şirin su ehtiyatlarının qismən məhdud olduğu və qeyri-bərabər paylandığı Azərbaycanda sudan

**20 may-9 iyun** - Türkiyədə səfərdə olub.

**15-17 iyul** - İsveçrəyə işgüzar səfərə gedib.

**31 oktyabr-2 noyabr** - Türkiyədə səfərdə olub və ona Atatürk Sülh Mükafatı (01.11.1999) təqdim edilib.

**17-20 noyabr** - ATƏT-in İstanbul zirvə görüşündə iştirak edib.

**27 noyabr** - Türkiyədə qısamüddətli səfərdə olub.

səmərəli istifadə tarixin bütün dövrlərində aktual olmuşdur. Bu məsələ özünü daha çox şirin su ehtiyatlarının məhdud olduğu Abşeron yarımadasında büruzə vermişdir. XIX əsrin sonlarında neft sənayesinin inkişafı ilə əlaqədar Bakının sürətlə böyüməsi içməli suya tələbatın kəskin artması ilə nəticələnmişdir. Təxminən 110 il əvvəl Bakı şəhərinin su təchizatının yaxşılaşdırılması məqsədi ilə Bakı şəhərinə uzaq mənbələrdən su kəmərinin çəkilməsi ideyası ortaya çıxmışdır. Uzun müzakirələrdən sonra ölkənin şimalından - Xaçmaz rayonu ərazisindən Bakıya su xəttinin çəkilməsinə başlanmışdır. "Şollar" adı ilə tarixə düşmüş Birinci Bakı kəməri 100 ilə yaxındır ki, paytaxtı içməli su ilə təmin edir. Yeri gəlmişkən, bu layihənin həyata keçrilməsində ingilis mühəndis Uilyam Lindleyin xüsusi əməyi olmuşdur. Ötən əsrin ortalarından başlayaraq Bakının suya olan tələbatı artdığından yeni mənbələrindən şəhərə suyun verilməsi məsələsi yenidən aktuallaşmışdır. 1958-ci ildə İkinci Bakı su kəməri, bundan 3 il sonra isə Ceyranbatan sutəmizləyici qurğular kompleksi istismara verilmişdir.

Bölgələrin su-kanalizasiya infrastrukturları ötən əsrin 50-70-ci illərində yaradılmış və onların əksəriyyəti istismar müddətini başa vurmuşdur. Yeni layihələr çərçivəsində sugötürücü sistemlər yenidən qurulur, sutəmizləyici qurğular, su anbarlari tikilir, magistral və şəbəkə su-kanalizasiya xətləri çəkilir, çirkab sutəmizləyici qurğular tikilir, saygaclaşma işləri aparılır, yeni texnologiya əsasında tunel tipli kanalizasiya kollektorları yaradılır. Layihələrin icrası zamanı keyfiyyətli materiallardan və yüksək ixtisaslı mütəxəssislərin təcrübəsindən istifadəyə üstünlük verilir. İnfrastrukturun optimal idarə edilməsi məqsədi ilə "Azərsu" ASC-də Coğrafi İnformasiya və SCADA sistemləri yaradılır. Bu sistemlər içməli su və çirkab suların, həmçinin yağış sularının yeraltı infrastrukturlarını özündə birləşdirməklə onların vahid mərkəzdən idarəedilməsini nəzərdə tutur. Qeyd edək ki, AzərsuCİS layihəsi 2012-ci ildə Bentley beynəlxalq müsabiqəsinin qalibi olub və ilin mühəndislik layihəsi kimi qiymətləndirilib.

Bakı şəhərinin içməli, tullantı və yağış suları infrastrukturlarının 2035-ci ilə qədər perspektiv inkişafını nəzərdə tutan Master Plan hazırlanmışdır. Sənədə əsasən Bakı şəhəri və Abşeron yarımadasının sukanalizasiya infrastrukturu xeyli genişlənərək bütün yaşayış məntəqələrini əhatə edəcəkdir. Master Plana uyğun olaraq Abşeron yarımadasında 5900 km su, 7100 km kanalizasiya, 970 km yağış suları xətləri çəkiləcəkdir. Bunlarla yanaşı, qarşıdakı illərdə tutumu 1 milyon 345 min kubmetr olan 80-dən çox su anbarı, ümumi məhsuldarlığı sutkada 1 milyon 375 min kubmetr olan 11 çirkab sutəmizləyici qurğunun tikintisi də nəzərdə tutulur.

"Azərsu" ASC həyata keçirilən layihələrdə yeni texnologiyalardan istifadəyə üstünlük verir. İçməli suyun keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə Bakı yaxınlığında - Ceyranbatan ərazisində dünyanın ən böyük ultrasüzgəcli sutəmizləyici qurğusu tikilir. Məhsuldarlığı saniyədə 6 kubmetr olacaq qurğu Abşeron yarımadasında 1 milyon nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

İçməli və çirkab suların tərkibinin daha dəqiq tədqiqi məqsədilə yeni Mərkəzi Laboratoriya binası tikilir. Burada quraşdırılacaq ən müasir cihazların köməyi ilə Avropa Birliyi ölkələrinin və Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun analizlər aparılacaqdır. Yeni laboratoriyanın beynəlxalq akkreditasiyaya təqdim edilməsini də planlaşdırılır.

Şübhəsiz ki, həyata keçirilən layihələr elmi əsaslara söykənir və bu sahədə elm adamlarının, mütəxəssislərin fikirləri bizim üçün olduqca əhəmiyyətlidir. Su sektorunun qlobal problemlərinin öyrənilməsi və onların aradan qaldırılması, yeni texnologiyalardan istifadə imkanlarının araşdırılması baxımından olduqca əhəmiyyətlidir.

Bir daha qeyd edirik, ölkəmizdə su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması istiqamətində ən böyük işlər Azərbaycanın böyük dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilib. Bu gün də həmin işlər uğurla davam etdirilməkdədir".

Nicat İsmayılov





# Heydər Əliyev və Təhsil

Ulu öndər 1969-cu ildə ilk dəfə hakimiyyətə gəldiyi dövrdən Azərbaycanda orta və ali təhsilin yüksək səviyyədə inkişafı, o cümlədən, ölkədən kənarda kadr hazırlığı başlanıb. Ümummilli lider Heydər Əliyev 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali məktəbində 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasını təmin edib. Bütün görülən bu işlər, təbii ki, xalqımızın gələcəyi və gəncliyi üçün idi. Çünki ulu öndər Heydər Əliyev hər zaman bütün sahələrə olduğu kimi, gənclərə və gənclərin təhsilinin yüksək səviyyədə olmasına böyük qayğı və diqqət göstərib. Statistikaya görə, 1970-ci ilə qədər ölkədən kənarda təhsil alanların 40 faizi azərbaycanlı idisə, 1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində bu rəqəm 97,7 faizə yüksəlmişdi. Həmçinin, həmin illərdə ölkə ərazisində orta və ali məktəblərdə çalışan müəllimlərin öz ixtisasları üzrə daha da təkmilləşməsinə və yüksək səviyyədə tədris metodlarına yiyələnmələri üçün seminarlar hazırlanırdı və təbii ki, bu seminarlar onların fəaliyyətində öz müsbət təsirini göstərirdi. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda ümumtəhsil məktəblərinin sayı 3 dəfə artaraq 765-dən 2117-yə çatdırılıb. 1969-1982-ci illərdə 350 mindən çox şagird yeri olan 849 məktəb tikilib istifadəyə verilib. Bu illərdə ali təhsil müəssisələrinin sayı da artırılıb, ali təhsil müəssisələrində təhsil alanların sayı 70 mindən 100 minə çatdırılıb.

**Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev də ulu öndərin siyasi kursuna sadiq qalaraq, digər sahələrlə yanaşı, təhsilimizə də yüksək qayğı göstərir. Azərbaycanda yeni məktəblərin tikintisi Dövlət proqramları əsasında reallaşır.**

Məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti, qayğısı nəticəsində müxtəlif sahələr üzrə neçə-neçə gənc yüksək səviyyəli mütəxəssis kimi hazırlanıb, Azərbaycanda sosial-iqtisadi və siyasi idarəetmə sahələrində milli kadr potensialı formalaşıb. Bu potensial Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkə üçün son dərəcə böyük əhəmiyyət kəsb edib. Çünki hər bir ölkənin inkişafı üçün onun hazırlıqlı kadr potensialının olması

**30 noyabr** - Ukrayna Prezidentinin andiçmə mərasimində iştirak edib.

**2000**

**10 yanvar** - Türkiyədə qısamüddətli səfərdə olub.

**23 -25 yanvar** - MDB ölkələri dövlət başçılarının Moskva zirvə görüşündə iştirak edib.

**27-30 yanvar** - Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün Davosda səfərdə olub.

vacib şərtlərdən biridir. Heydər Əliyev hələ o zaman gələcəkdə Azərbaycanın müstəqil bir dövlət olacağını düşünüb və sonralar bunu açıq şəkildə belə ifadə edib: "Bəli, mən bu işləri görərkən həm də gələcək müstəqil Azərbaycan üçün fəaliyyət göstərirdim və gələcək müstəqil Azərbaycan dövlətinin əsaslarını yaradırdım".

Müstəqil Azərbaycanın təhsil sistemindəki nailiyyətləri də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ölkəmizi çətin vəziyyətlərdən xilas edən ümummilli lider Heydər Əliyev ölkədə bütün sahələrə olduğu kimi, təhsil sahəsinə də xüsusi diqqət və qayğı ilə yanaşdı. Heydər Əliyevin təhsilimizə göstərdiyi bütün qayğının arxasında onun "Təhsil millətin gələcəyidir" fikri durmuşdu. Azərbaycanın müstəqilliyinin ilk illərinə nəzər saldıqda, görürük ki, təhsil sahəsində müxtəlif çətinliklər, problemlər yaşanırdı. Bu problemlər məktəblərin yenidən qurulmasına, dərsliklərin və təhsil proqramlarının yenidən tərtib edilməsində özünü göstərirdi. Təbii ki, bütün bunları nəzərə alınaraq, yeni məktəblərin tikilməsi, yeni dərs metodlarının tətbiq olunması və digər yüksək səviyyəli işlərin icrası ardıcıl və nizamlı şəkildə aparıldı.

Heydər Əliyev milli dövlət quruculuğu prosesində "Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir" meyarı ilə çıxış edirdi. 1999-cu i il iyunun 15-də ulu öndərin "Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı"nın təsdiq olunması haqqında imzaladığı sərəncam milli təhsilimizin sonrakı inkişafı üçün əsaslı stimul yaratdı. Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də təhsil sisteminin əsaslı surətdə təkmilləşdirilməsinə, beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaradan "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Ulu öndər deyirdi "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır nə də ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən sahədir".

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev də ulu öndərin siyasi kursuna sadiq qalaraq, digər sahələrlə yanaşı, təhsilimizə də yüksək qayğı göstərir. Azərbaycanda yeni məktəblərin tikintisi Dövlət proqramları əsasında reallaşır. Heydər Əliyev Fondunun da bu sahədə xidmətləri çox böyükdür. Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu sahədə problemlərin həllində əhəmiyyətli rol oynayıb.

Qvami Rəsulov



**Heydər Əliyev milli dövlət quruculuğu prosesində "Elmə, təhsilə göstərilən yüksək qayğı xalqın xoşbəxt gələcəyinə qoyulan təminatlı sərmayədir" meyarı ilə çıxış edirdi.**

**12-28 fevral** - ABŞ-a işgüzar səfərdə olub.

**22 - 23 mart** - Gürcüstana rəsmi səfərə gedib.

**9 - 10 iyun** - İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) VI zirvə görüşündə iştirak etmək üçün İranda səfərdə olub.

**20 - 22 iyun** - MDB ölkələri dövlət başçılarının Moskva zirvə görüşündə iştirak edib.



# Təhsilimizə "Çağ" əmanəti

Hazırda təhsil sektorunda dövlət muəssisələri ilə yanaşı, özəl təhsil muəssisələri də fəaliyyət göstərir. Bu muəssisələr arasında sayına və əhatə dairəsinə görə ümumi orta və ali təhsil muəssisələri üstünlük təşkil edir. Şübhəsiz, özəl təhsil muəssisələrinin yaranması bir sıra əhəmiyyətli cəhətləri ilə xarakterizə olunub. İlk növbədə, təhsil muəssisələrinin şəbəkəsi genişlənib, insanların təhsil almaq və seçim imkanları artıb.

Belə özəl təhsil müəssisələrindən biri də ictimaiyyətdə "Çağ" adı ilə tanınmış, bu gün artıq Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi İctimai Birliyində fəaliyyət göstərən "Çag" Öyrətim İşlətmələri Şirkətidir.

"Çağ" Öyrətim İşlətmələri İdarə Heyətinin sədri dr. Ənvər Özərənin də dediyi kimi, onun rəhbərlik etdiyi qurum Azərbaycanda ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayıb və ötən dövr ərzində onun etimadını doğrultmağa çalışıb: "Ulu öndər Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri vəzifəsində işləyərkən, 1992-ci il dekabrın 1-də Türkiyə Cümhuriyyətindən olan özəl təhsil qurumu ilə bağladığı təhsil müqaviləsi Azərbaycanda ilk Azərbaycan-Türkiyə təhsil müqaviləsi olmaqla Naxçıvandan başlayaraq Azərbaycanda özəl təhsil müəssisələrinin fəaliyyətinə yol açıb. Qeyd edim ki, ulu öndər Heydər Əliyev fəaliyyətimizi yüksək dəyərləndirib. O, deyib ki, "Çağ"ın Azərbaycanda gördüyü işlər respublikamızın təhsil sistemində müəyyən müsbət dəyişikliklər meydana gətirir. Ona görə də mən bu liseylərə həmişə dəstək vermişəm, bundan sonra da verəcəyəm. "Cağ"ı Heydər Əliyevin əsəri adlandıran Ənvər Özərən bildirdi ki, ümummilli lider ömrünün sonuna kimi bu məktəbləri təqdir edib və onları nümunə göstərib. Bir sözlə, "Çağ"ın memarı da, təməlini qoyan da, böyüdüb boya-başa çatdıran da Heydər Əliyev kimi dühadır". "Heydər Əliyev hər zaman "Təhsil millətin gələcəyidir" - deyirdi. Xatırladaq ki, ümummilli lider Heydər Əliyev "Çağ"ın Fəxri Baş Müəllimi adına layiq görülüb.

Bu böyük insanın müdrik sözləri həqiqəti tam əks etdirir", - deyən Ənvər sözünü davam etdirərək belə əlavə etdi: "Yeri gəlmişkən, Prezident İlham Əliyev də daim "Çağ" Öyrətimin fəaliyyətinə böyük qiymət verib. "Mən istərdim ki, Azərbaycanda bu təhsil müəssisələrinin sayı çox olsun" - deyən ölkə

**3-6 iyul** - Avstriyada rəsmi səfərdə olub.

**18-19 avqust** - Yaltada MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib.

**4-29 sentyabr** - BMT-nin "Minilliyin sammiti"ndə iştirak etmək üçün ABŞ- da işgüzar səfərdə olub.

**1 dekabr** - MDB ölkələri dövlət başçılarının Minsk zirvə görüşündə iştirak edib.




rəhbəri qeyd edib: "Mən türk liseylərinin fəaliyyətlərini çox yüksək qiymətləndirirəm və bunları quran, işlədən insanlara öz minnətdarlığımı bildirmək istəyirəm. Burada təhsil alan gənclərimiz beynəlxalq yarışlarda çox yüksək mükafatlar qazanırlar. Bu, bizi çox sevindirir və onu göstərir ki, həmin liseylər Azərbaycanın gələcəyi üçün gözəl kadrlar yetişdirirlər. Əlbəttə ki, bir Prezident kimi mən bu liseylərin öz fəaliyyətlərini davam etdirmələrini və daha da genişləndirmələrini istərdim".

Qeyd edək ki, "Çağ" çox nəfis şəkildə, yüksək çap texnologiyasına uyğun "Heydər Əliyev və "Çağ" Öyrətim" kitabını da nəşr etdirib. Kitabda şirkətin inkişaf xronologiyası, tarixi faktlar, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin bu quruma daim göstərdikləri qayğı və dəstək öz əksini tapıb.

Məlumat üçün bildirək ki, ölkəmizdə qurulmuş məhdud məsuliyyətli müəssisə olan şirkətin strukturuna ümumtəhsil mərhələsində Azərbaycan-Türkiyə Özəl Liseyləri; ali təhsilə hazırlıq mərhələsində "Araz" kursları və ali təhsil mərhələsində "Qafqaz" Universiteti daxildir. Ümumtəhsil mərhələsində "Çağ" Öyrətimin 10 liseyi (Bakı, Sumqayıt, Quba, Ağdaş, Şirvan, Gəncə, Lənkəran, Mingəçevir, Şəki), 1 gimnaziyası, 1 ibtidai məktəbi və respublikamızın 13 şəhər və rayonunda ali təhsilə hazırlıq kursu fəaliyyət göstərir. Liseylərin məzunları bu gün həm Azərbaycanın, həm də onun təhsilinin dünyada təbliğatçılarıdırlar. Təkcə bir faktı qeyd edək ki,1994-cü ildən "Çağ" beynəlxalq bilik yarışlarından ölkəmizi təmsil edir. Beynəlxalq bilik yarışlarında bu liseylərin şagirdləri 104 qızıl, 170 gümüş, 243 bürünc medal olmaqla 537 medal qazanıblar. Bu isə o deməkdir ki, bu gün Azərbaycan məktəblisini dünya olimpiadalarsız, dünya fənn olimpiadalarını isə Azərbaycansız təsəvvür etmək qeyri-mümkündür. Respublika fənn olimpiadalarında isə 230 qızıl, 284 gümüş, 245 bürünc olmaqla 723 medal qazanıblar. Ənvər Özərənin sözlərinə görə, qazanılan nailiyyətlər təbiidir: "Bir binanın təməli möhkəmdirsə, onun uzunömürlülüyü və səmərəliyi heç kəsdə şübhə doğura bilməz. Biz bundan sonra da etimada sədaqətlə xidmətimizi davam etdirəcəyik".

**"Çağ"ı Heydər Əliyevin əsəri adlandıran Ənvər Özərən bildirdi ki, ümummilli lider ömrünün sonuna kimi bu məktəbləri təqdir edib və onları nümunə göstərib. Bir sözlə, "Çağ"ın memarı da, təməlini qoyan da, böyüdüb boya-başa çatdıran da Heydər Əliyev kimi dühadır".**

Müəllimlərinin əksəriyyəti azərbaycanlı pedaqoqlardan ibarət olan bu məktəblərdə şagirdlərin 99 faizindən çoxu dünyanın ən tanınmış universitetlərinə qəbul olunurlar. Ümumiyyətlə, 40-a yaxın dövlətin 50-dən artıq ali məktəbində təhsil alan bu təhsil ocağının məzunları həm də Azərbaycanı, mədəniyyətimizi, elmimizi layiqincə təmsil və təblig edir, haqq səsimizi yayırlar. Bu məktəblərin 40-dan artıq məzunun Lomonosov adına Moskva Dövlət Universitetində təhsil aldığı barədə məlumata ulu öndər Heydər Əliyevin münasibəti belə olub: "Sovet dövründə biz ildə iki nəfəri Lomonosov adına Universitetə təhsil almağa yola salanda, bununla fəxr edirdik. Baxın, indi hər il bu məktəbdən neçə nəfər bu universitetdə təhsil alır".

"Çağ"dan bu və ya digər tədbirlərdə söz açanlar da bu qurumun fəaliyyətini yüksək dəyərlədirirlər. Dəfələrlə vurğulanıb ki, təhsil sahəsində uğurlar əldə etmək heç da asan deyil. Amma "Çağ"ın bu sahədəki uğurları kifayət qədərdir. Onların Azərbaycan naminə əldə etdikləri uğurların müəyyən səbəbləri var. Azərbaycan Təhsil Şurasının sədri, əməkdar müəllim, pedaqoci elmlər doktoru, professor Əjdər Ağayevin sözlərinə görə, bu uğurların önündə halallıq dayanır: "Bu məktəblərdə heç kəs heç kəsdən heç nə ummur. İkincisi, bu məktəblərdə təsadüfi müəllimlər çalışmırlar. Onlar yüksək biliyə, həm də mənəviyyata malik insanlardır. Həmin müəllimlər, sözün həqiqi mənasında, şagirdlərə xidmət edirlər. Elə bu kimi səbəblərdən müəllim-şagird münasibətlərində əsl əməkdaşlıq hökm sürür".

Yuxarıda da qeyd etdiyimiz kimi, "Çağ" Öyrətim şirkəti artıq Azərbaycan Dövlət Neft Şirkəti ilə Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi İctimai Birliyində müştərək fəaliyyət göstərir. Bu, adı çəkilən şirkətə göstərilən yüksək qayğının, onun fəaliyyətinə verilən böyük qiymətin nəticəsidir. Bu barədə verilən çox sayda suallara ümumi şəkildə cavab verən dr. Ənvər Özərən bu birliyin mahiyyətini belə açıqlayır: "Biz fəaliyyətimizə yüksəq qiymət verən, etimad göstərən Azərbaycan rəhbərliyinə dərin minntdarlığımızı bildiririk. Təkcə sözdə deyil, əməli işlə də bu etimada sədaqətlə xidmət etməyə davam edəcək, möhtərəm prezident İlham Əliyev cənablarının "Biz neft kapitalını insan kapitalına çevirməliyik!" çağırışını həyata keçirmək üçün bütün səy və bacarığımızı, imkanlarımızı sərf edəcəyik, çünki bizim prinsipimiz eyimada sədaqətdir. Sədaqət isə insanın, kollektivin, cəmiyyətin başlıca meyarlarından biridir."

Qvami Rəsulov

**2001**

**23- 24 yanvar** - Fransada rəsmi səfərdə olub və Azərbaycanın Avropa Şurasına qəbulu zamanı Parlament Assambleyasının sessiyasında iştirak edib.

**3-6 mart** - Parisdə Ermənistan prezidenti ilə görüşüb.

**1-13 aprel** - ABŞ-a işgüzar səfərə gedib və Ki Vest şəhərində Ermənistan prezidenti ilə görüşüb.

# Ana dilimizə sədaqətlə

**Heydər Əliyev BDU-nun 75 illiyinə həsr edilmiş iclasda müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər".**

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyasının əsasında doğma ana dilimiz dayanırdı. Heydər Əliyev çıxış və nitqlərində dilimizin zənginliyindən məharətlə istifadə edərək daha səlis və rəvan danışırdı. O deyirdi ki, hər bir millətin dili onun üçün çox əzizdir. Ümummilli lider Heydər Əliyevin hələ sovet dövründə müəyyən təzyiqlərə baxmayaraq, dilimizin ölkəmizdə dövlət dilinə çevrilməsində böyük xidməti olub. Belə ki, 1969-cu ildə respublikanın rəhbəri seçilən Heydər Əliyev cəmi bir neçə aydan sonra o vaxtkı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) 50 illik yubileyində Azərbaycan dilində nitq söyləyib. Şübhəsiz ki, həmin dövrdə belə bir addım atmaq böyük bir cəsarət tələb edirdi. Həmin tarixi günü Heydər Əliyev 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilmiş iclasda müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər".




Ulu öndər sovet rejiminin tüğyan etdiyi bir vaxtda deyirdi ki, konstitusiya vətəndaşlara təhsil hüququ verib. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Azərbaycan Konstitusiyası layihəsinin ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş iclasda ulu öndər Heydər Əliyev qətiyyətlə bildirdi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Bu təklif yekdilliklə qəbul edildi və Azərbaycan SSR-də dövlət dili Azərbaycan dili oldu.

Bir sözlə, o, hələ sovet dönəmində Azərbaycan dilinin dövlət dilinə yalnız sözdə deyil, əməldə çevrilməsi üçün bütün gücü, qüdrəti, iradəsi və cəsarəti ilə çalışıb.

Ulu öndərin yenidən hakimiyyətə qayıdışından sonra da bu məsələ onun daim diqqət mərkəzində olub. Qeyd edək ki, keçən əsrin 90-cı illərinin ortalarında müstəqil Azərbaycan dövlətinin konstitusiyası qəbul olunarkən dövlət dili öndə olan bir məsələ idi. Dilə nüfuz qazandırmaq, dil məsələsinin nə qədər əhəmiyyətli olduğunu göstərmək üçün ümummilli lider Heydər Əliyev bu məsələnin ayrıca müzakirəsini və referendumda səsə qoyulmasını təklif edib. Çoxlu müzakirələr aparılıb. Müzakirələrdə dilçilər, ədəbiyyatçılar, tarixçilər, yazıçılar, filosoflar - bütün ziyalılar iştirak ediblər və hər kəs o zaman bu məsələ ilə bağlı öz fikrini bildirib.

## Heydər Əliyev: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".

Konstitusiya ilə yanaşı, dahi öndərin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, 506 saylı fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli, 76 nömrəli sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 552 nömrəli sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin dövlətçilik təcrübəsi, yenilməz məntiqi, vətəndaşlıq qeyrəti, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynayıb. Yeri gəlmişkən, ulu öndər Heydər Əliyevin 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanından söz açan Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin mədəniyyət komitəsinin sədri, AMEA-nın müxbir üzvü Nizami Cəfərov deyirdi ki, bu sənəd, ümumiyyətlə, dilçiliyimizin və dilimizin tarixində ən mühüm hadisələrdən biri idi. Çünki bu sənəddə taleyüklü bir sıra məsələlər ortaya qoyulub. Məhz onun 9 avqust 2001-ci il tarixli fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Dillə bağlı ulu öndərin olduqca qiymətli fikirləri var. Ulu öndərə məxsus fikirdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Onun belə bir kəlamı da var: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi sox sevir və bu dildə danışmağımla fəxr edirəm". Yeri gəlmişkən, burada professor Nizaməddin Şəmsizadənin bir fikrini vurgulamaq yerinə düşərdi: "Heydər Əliyev həmişə "Azərbaycan dili" sözlərini təkrar etməkdən, tez-tez dilə gətirməkdən dərin zövq alır, milli qürur duyurdu". Dünya Azərbaycanlılarının I qurultayında ümummilli lider Heydər Əliyev deyib: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamı imzalayıb. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiqi də bu sahədə atılan ən mühüm addımlardandır.

**Qvami Rəsulov**

2001

**25-27 aprel** - Türkiyədə rəsmi səfərdə olub.

**31 may-1 iyun** - Minskdə MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak edib.

**6-7 iyun** - GUÖAM təşkilatına üzv ölkələrin dövlət başçılarının Yalta görüşündə iştirak edib.

**2-3 avqust** - MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi Soçi görüşündə iştirak edib.

**29 noyabr-1 dekabr** - Moskvada MDB-yə üzv ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edib.

2002

**2002 - 24-26 yanvar** - Rusiyada dövlət səfərində olub.

**30 yanvar-2 fevral** - Nyu-Yorkda Dünya İqtisadi Forumunun rəsmi ofisinin açılış mərasimində iştirak edib.

**29 - 30 aprel** - Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin Trabzon zirvə görüşündə iştirak edib.

# "Yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək"



**Ulu öndər Heydər Əliyev özü də Azərbaycanın xalq mahnılarına vurğun idi. O, "Alagöz" mahnısını ifa edərkən o qədər musiqiyə həssas yanaşırdı ki, lirik mahnı onu kövrəldirdi.**

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Bu sözlərin müəllifi ümummilli lider Heydər Əliyevdir. Azərbaycanın müstəqilliyinin ilk illərində mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı bu sahənin tərəqqisinə yeni təkan verdi. Nəticədə, ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın mənəvi həyatında əsaslı yüksəlişə səbəb oldu. Üstəlik, Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanıtdırılması dövrü başlandı. Həyat təsdiqlədi ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev qədər əsl himayədarı, böyük qayğıkeşi olmayıb. Heydər Əliyev mədəniyyətə sadəcə qayğı göstərməklə kifayətlənmirdi. Bu və ya digər musiqi əsəri, incəsənət xadiminin yaradıcılığı haqqında elə dəqiq fikirlər söyləyirdi, təhlillər edirdi ki, hətta ona sənətşünaslar belə həsəd aparırdılar. Heydər Əliyev hər bir sənət sahibi ilə məhz o sənətin mahir bilicisi kimi söhbət edirdi. O həm də həmin insanlara xüsusi diqqət yetirirdi. Ümummilli liderimizin sözləridir: "Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər". Qeyd edək ki, musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan ulu öndərin sərəncamı ilə 24 bəstəkar və musiqişünasa Prezident Təqaüdü verildi. Onların bir çoxu "Şöhrət" ordeninə layiq görüldü. Arif Məlikov, Müslüm Maqomayev, Zeynəb Xanlarova, Arif Babayev, Habil Əliyev kimi musiqi xadimləri "İstiqlal" ordenilə təltif olundular.

Heydər Əliyevin unudulmaz xidmətlərindən biri də budur ki, müdrik insan müasir musiqinin yeni janrlarının yaradılması ilə bərabər, milli musiqimizin də unudulmamasına çalışırdı. Bu gün ölkəmizdə onlarla sənət adamının-yazıçıların, şairlərin, musiqiçilərin, rəssamların, memarların ev muzeyləri fəaliyyət göstərir. Azərbaycanda ev muzeylərinin yaradılmasının təşəbbüskarı da məhz Heydər Əliyevdir. Yeri gəlmişkən, Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsi, doğulduğu doğma Naxçıvanda torpağa tapşırılması və müqəddəs Cavidin ruhuna hörmət olaraq məqbərənin ucaldılması, eləcə də Bakıda bu böyük şairin adına ev muzeyinin açılması məhz Heydər Əliyevin misilsiz xidmətidir. Azərbaycan kinosunun inkişafı da Heydər Əliyevin adı ilə bağlıdır. Bir sıra filmlərin yaranmasında onun şəxsi təşəbbüsü olub. "Uzaq sahillərdə", "İstintaq", "Bir cənub şəhərində", "Nəsimi", "Babək" ekran əsərlərinin yaranmasında, sovet senzurasından keçməsində Heydər Əliyevin səyləri danılmazdır.

Ulu öndər Heydər Əliyev özü də Azərbaycanın xalq mahnılarına vurğun idi. O, "Alagöz" mahnısını ifa edərkən o qədər musiqiyə həssas yanaşırdı ki, lirik mahnı onu kövrəldirdi. İşinin həddindən artıq çoxluğuna baxmayaraq, Heydər Əliyev teatra gəlir, yeni tamaşalara baxır, hər zaman tamaşa sonunda səhnə arxasında sənətçilərlə görüşüb dərin məzmunlu fikirlərini söyləyirdi: "Mən həmişə teatra bağlı və yaxın olmuşam. Bu, ötəri hiss deyil, içimdən gələn bir məhəbbətdir. Teatrı çox sevirəm. Teatra məhəbbət mənim içimdədir. İncəsənətin, o cümlədən kino və teatrın təsiri və tərbiyə qüvvəsi çox böyükdür. Bu qüvvədən bacarıqla istifadə etmək həmişə vacibdir".

Müdrik şəxsiyyət həmişə milli mədəniyyətə, onun tarixi qaynaqlarına diqqətlə yanaşırdı. O deyirdi: "Yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək". Onun sözlərinə görə, qazanılan gəlir birinci növbədə mədəniyyətə sərf olunmalıdır. Çünki mədəniyyət hər şeydən üstündür. O, mədəniyyəti ayrı-ayrı xalqları birləşdirən vasitə kimi xarakterizə edir və mədəni körpülərin salınmasını vurğulayırdı: "Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".

Qvami Rəsulov



**18 - 20 may** - İran İslam Respublikasına səfərə gedib.

**8 - 9 iyun** - Rusiya Federasiyasına işgüzar səfərə gedib.

**24 - 28 iyun** - Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 10 illik yubileyində və GUÖAM üzvü olan ölkə başçılarının toplantısında iştirak etmək üçün Türkiyədə olub.

**24 - 27 sentyabr** - Rusiya Federasiyasına səfər edib.

**6-7 oktyabr** - Kişinyovda MDB ölkələri dövlət başçılarının zirvə görüşündə iştirak edib.

**21 - 22 noyabr** - NATO Tərəfdaşlıq Surasının zirvə görüşündə iştirak etmək üçün Praqada səfərdə olub.

# Azərbaycanlıların birliyinə nail olunması



Musa Qasımov,
tarix elmləri doktoru, professor.

Müəyyən məkan və zaman daxilində fəaliyyət göstərən siyasi, dövlət xadiminin həyatına və həyata keçirdiyi tədbirlərə mövcud şəraitdən kənarda, mücərrəd halda qiymət vermək qeyri-elmi və yanlışdır. Belə qiymət heç vaxt kiçicik tənqidə tab gətirə bilmir. Bu baxımdan H.Əliyevin fəaliyyəti də istisna deyil. H.Əliyev Azərbaycan xalqının zəngin tarixinin bir hissəsini təşkil edən sovet dövründə dünyaya gəlmiş, boya-başa çatmış, işləmiş, sovet cəmiyyətinin yetişdirdiyi görkəmli siyasi və dövlət xadimi, respublikanın kommunist rəhbəri idi. Xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, döyüşkən, cəsarətli, inadcıl, prinsipləri uğrunda qətiyyətlə mübarizə aparan, beynəlmiləlçiliyi həyata keçirən partiya rəhbəri olmaqla yanaşı, milli ruhlu, millətsevər bir azərbaycanlı siyasi xadim, tarix yaradan böyük dövlət adamı, milli lider idi.

**H.Əliyev hakimiyyətə gəldikddən dərhal sonra xalqının qarşısında duran başlıca problem olan - siyasi rəhbərlik daxilində yekdillik, azərbaycanlılar arasında milli birlik, xalqla hakimiyyət arasında uçurumu aradan qaldırıb vəhdət yaratmaq kimi problemi həll etməyə ciddi səylə girişdi.**

H.Əliyev hakimiyyətə gəldikdən dərhal sonra xalqının qarşısında duran başlıca problem olan - siyasi rəhbərlik daxilində yekdillik, azərbaycanlılar arasında milli birlik, xalqla hakimiyyət arasında uçurumu aradan qaldırıb vəhdət yaratmaq kimi problemi həll etməyə

**2003**

**28 - 29 yanvar** - MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Kişinyovda səfərdə olub.

**23 fevral - 14 mart** - ABŞ-da işgüzar səfərdə olub.



**T.Svyatoxovski başqa bir əsərində yazır: "Əliyev nailiyyətinin ən aşkar mənbəyi onun neft siyasətində idi. Lakin həmin siyasət həm də yerliçiliyi həyata keçirirdi. Bu da yerli nomenklaturanın möhkəmləndirilməsi ilə nəticələndi.**

ciddi səylə girişdi. O, respublikanın rəhbəri seçilən kimi atdığı birinci addımı ilə bu cəhətdən nümunə göstərdi. H.Əliyev nəinki Azərbaycanın keçmiş rəhbərliyini tənqid etmədi, əksinə özündən əvvəl Azərbaycan rəhbəri işləmiş Vəli Axundovun MK-nın birinci katibi olarkən istifadə etdiyi xidmətlərini özündə saxladı, vəzifə verərək normal iş şəraiti yaradıb özünə qədərki rəhbərlərdən xeyli irəli getdi, özündən sonra gələnlərə isə yaxşı nümunə qoyaraq ibrət verdi. Qeyd etmək lazımdır ki, sovet dövrü tarixində H.Əliyevə qədər keçmiş rəhbərə münasibətdə heç vaxt belə bir hal olmamışdı. Bununla belə, doğrudur, sonrakı illərdə H.Əliyevin keçmiş rəhbərliyi bəzi məsələlərdə, o cümlədən Azərbaycan torpaqlarını Ermənistana güzəştə getmək üstündə tənqid etməsinə rast gəlmək mümkündür.

**Heydər Əliyev hakimiyyətə gələn kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirdi, iqtisadi idarəçilikdə azərbaycanlıların mövqelərini möhkəmləndirdi, iqtisadiyyata rəhbərliyi onların nəzarətinə keçirdi.**

H.Əliyev hakimiyyətə gəldikdən az sonra respublikanın siyasi rəhbərliyində birliyə çalışaraq buna məharətlə nail oldu. O, hakimiyyət strukturlarına əsasən azərbaycanlıları yerləşdirərək Azərbaycan elitasını birləşdirib respublikanı tərəqqiyə doğru aparmağa başladı. Hər yerdə əsasən azərbaycanlıları vəzifələrə çəkən H.Əliyev yerli xalqın nümayəndələrindən müxtəlif sahələr, xüsusən gələcək dövlət müstəqilliyi üçün lazım olan peşəkar kadrları hazırlamaq istiqamətində səylər edirdi. Bununla bağlı olaraq görkəmli ABŞ tarixçiləri T.Svyatoxovski və B.K.Kollinz yazırlar ki, H.Əliyev Azərbaycan Kommunist Partiyasının rəhbəri seçildikdən sonra respublikadakı iqtisadi tənəzzülün qarşısı alındı, alternativ sənaye sahələri yaradıldı, neft sənayesinə xüsusi diqqət yetirildi. O, respublikanın siyasi elitasını birləşdirdi. Bu elita əsasən azərbaycanlılardan ibarət idi.

Həmin tarixçilər H.Əliyevin bu sahədəki fəaliyyətini təhlil edərək daha sonra yazırlar ki, o, daim milli birliyə can atır, Azərbaycan elitasını birləşdirərək azərbaycanlıları yüksək vəzifələrə gətirirdi.

H.Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanın partiya-siyasi, qanunverici, icraedici və məhkəmə orqanları arasında, onların öz daxilində yekdillik hökm sürürdü. Bu orqanlar artıq kollektiv deyil, komanda olaraq işləyirdilər. Tələbkar olduğundan H.Əliyevlə işləmək çətin, ədalətli olduğundan, maraqlı ideyanı dərhal qəbul edib həyata keçirmək üçün göstəriş verdiyindən asan idi.

T.Svyatoxovski başqa bir əsərində yazır: "Əliyev nailiyyətinin ən aşkar mənbəyi onun neft siyasətində idi. Lakin həmin siyasət həm də yerliçiliyi həyata keçirirdi. Bu da yerli nomenklaturanın möhkəmləndirilməsi ilə nəticələndi. Əliyevin otuz beş nəfər əsas əməkdaş və tərəfdarlarının, demək olar ki, hamısı azərbaycanlı idi. Əliyev mühüm əhəmiyyətli boş vəzifə yerlərini doldurmaq üçün slavyan mənşəli namizədlərdən istifadə edilməsinə heç bir meyil göstərmirdi və bir qayda olaraq, rus millətindən olan ikinci katib Moskva tərəfindən təyin edilirdi".

H.Əliyev Azərbaycan neftinin mərkəzə daşınmasında maraqlı olmadığından qeyri-neft sahələrinə başlıca diqqət yetirir, maliyyə vəsaiti ayırır, bununla da respublikanın regionlarının inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, azərbaycanlıların həyat şəraitinin yaxşılaşdırılmasına, əhalinin demoqrafik inkişafına, rayonların və kəndlərin mədəni simasının dəyişdirilməsinə dair strateji niyyətlərini həyata keçirirdi. 70-ci illərdə Azərbaycanda pambıqçılığın və üzümçülüyün üstün inkişafının səbəblərindən biri də məhz bu amillərlə bağlı idi.

ABŞ tədqiqatçısı Bernard A.Kukun redaktorluğu altında nəşr edilmiş ensiklopediyada göstərilir ki, Heydər Əliyev hakimiyyətə gələn kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirdi, iqtisadi idarəçilikdə azərbaycanlıların mövqelərini möhkəmləndirdi, iqtisadiyyata rəhbərliyi onların nəzarətinə keçirdi.

**70-ci illərdə ölkədə DTK şəksiz hökmran idi. Azərbaycanda bu praktikanı cəsarətlə qıran H.Əliyev gəlmələrin hökmranlığına son qoymaq istiqamətində çalışır, DTK orqanlarının şəxsi heyətinin azərbaycanlılaşdırılmasına səy edir, yerli xalqın nümayəndələrini yerləşdirərək yüksək rütbələr verilməsinə nail olurdu.**

Bütün sovet dövründə azərbaycanlılar ilk dəfə olaraq Azərbaycanda məhz H.Əliyevin hakimiyyəti illərində iqtisadi həyatda hökmran mövqe tutdular, onların özünə inamı gücləndi. Artıq qeyd edildiyi kimi, müttəfiq respublikalarda Kommunist Partiyası MK-nın ikinci katiblərinin ya rus ya da ukraynalı olması praktikası qayda halını almışdı. Fransız tarixçisi Nikolas Vert yazır ki, 70-ci illərdə ölkədə DTK şəksiz hökmran idi. Azərbaycanda bu praktikanı cəsarətlə qıran H.Əliyev gəlmələrin hökmranlığına son qoymaq istiqamətində çalışır, DTK orqanlarının şəxsi heyətinin azərbaycanlılaşdırılmasına səy edir, yerli xalqın nümayəndələrini yerləşdirərək yüksək rütbələr verilməsinə nail olurdu. O yaxşı başa düşürdü ki, azərbaycanlı ziyalıların xalqın inkişafına dair söylədikləri fikir və mülahizələr dövlət üçün heç bir qorxu törətməsə də, əslində lazımlı olsa da, ölkədə hakim olan millətin nümayəndələrinin rəhbər vəzifələr tutduğu DTK tərəfindən millətçilik kimi qarşılanır və ona qarşı ən sərt tədbirlər tətbiq edilir. Bütün bunlar milli ruhlu



**1920-ci ildə Azərbaycan Kommunist Partiyasının sıralarında 4 min nəfər var idisə (bunların heç də hamısı azərbaycanlı deyildi), 1980-ci ildə bu rəqəm 324 minə çatmışdı. Əgər 20-ci illərdə partiyaçıların 4,4%-i orta və ali təhsilli idisə, 1980-ci ildə onların xüsusi çəkisi 75%-ə qalxmışdı.**

adamların gözünü qorxudur, xalqın mənafeləri naminə düşünməkdən və fəaliyyət göstərməkdən uzaqlaşdırırdı. Ona görə də H.Əliyev bu orqanda işləyən yüksək rütbəli azərbaycanlıların sayının artırılmasına çalışır və buna nail olurdu. Məsələn, Azərbaycan SSR DTK sədri V.S.Krasılnikov başqa işə keçməsi ilə əlaqədar olaraq vəzifəsindən azad edildikdə H.Əliyev onun yerinə 1929-cu ildə anadan olmuş, 1956-cı ildən DTK orqanlarında, 1976-cı ildən isə DTK sədrinin birinci müavini vəzifəsində işləyən general-mayor Ziya Məmmədiyyə oğlu Yusifzadənin namizədliyini tövsiyə edib, onun haqqında Sov. İKP MK-ya 1980-ci il 27 may tarixli 276 s N-li məxfi məktub yazdı. Onun tövsiyəsi və təklifi ilə Z.Yusifzadə Azərbaycan

**Heydər Əliyev hakimiyyətə gələn kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqət yetirdi, iqtisadi idarəçilikdə azərbaycanlıların mövqelərini möhkəmləndirdi, iqtisadiyyata rəhbərliyi onların nəzarətinə keçirdi.**



SSR DTK sədri təyin edildi. Bununla da DTK sistemində rəhbərlik yenidən azərbaycanlıların əlinə keçdi. Nəticədə H.Əliyev Azərbaycan DTK-sı üzərində Moskvadan çox özü nəzarət qazanmış oldu. Beləliklə, bundan sonra millətsevər ziyalıların qorunması daha etibarlı oldu, yaradıcılıqları üçün sərbəstlik yarandı.

Qeyd etmək lazımdır ki, Azərbaycan DTK zabit heyətinin tərkibində azərbaycanlıların sayı 1950-ci ildən 1985-ci ilədək artmağa, rusların və ermənilərin sayı isə azalmağa doğru getmişdi. Sonralar H.Əliyev deyirdi ki, kadr yetişdirmək böyük vaxt, böyük zəhmət tələb edir. Mən burada, Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim zaman da, Azərbaycanın rəhbəri olduğum zaman da çalışmışam ki, milli kadrlar yetişdirək. Bir tək burada deyil, mən bunu hər yerdə edirdim. Məsələn, Kənd Təsərrüfatı Nazirliyində buna böyük ehtiyac yox idi. Amma bura on illərlə, 1920-ci ildən Moskvanın əli altında olduğuna və azərbaycanlılara etimad göstərilmədiyinə görə, - mən bunu, bu tarixi bilirdim, bunlar hamısı gözümün qabağında olan şeylərdir, - milli kadrları yetişdirməyə çalışırdım.

H.Əliyev partiya sıralarında azərbaycanlıların xüsusi çəkisinin artırılmasına diqqət yetirir, buna uğurla nail olur, nəticədə isə onları partiya, sovet və təsərrüfat orqanlarında yerləşdirərək idarəçilik təcrübəsi öyrədirdi. O bu addımlarını elə bir zamanda atırdı ki, sovet respublikalarında vəzifələrə əsasən ruslar gətirilir, ölkədə güclü ruslaşdırma siyasəti həyata keçirilirdi. Respublikada azərbaycanlı kommunistlərin sayının çox olması onların məsul vəzifələr tutmasına imkan verirdi. Sovet sistemi şəraitində vəzifə tutaraq xalqa xidmət etməyin başlıca yolu Kommunist Partiyasına üzv olmaqdan keçirdi. Partiya üzvü olmayanların yüksək vəzifələr tutması mümkün deyildi. Çünki ölkədə nə ikinci bir partiya, nə də başqa bir siyasi təşkilat var idi.

Buna görə də H.Əliyev daha çox azərbaycanlının kommunist olmasına çalışırdı. Müqayisə üçün belə bir fakt maraqlıdır ki, əgər 1920-ci ildə Azərbaycan Kommunist Partiyasının sıralarında 4 min nəfər var idisə (bunların heç də hamısı azərbaycanlı deyildi), 1980-ci ildə bu rəqəm 324 minə çatmışdı. Əgər 20-ci illərdə partiyaçıların 4,4%-i orta və ali təhsilli idisə, 1980-ci ildə onların xüsusi çəkisi 75%-ə qalxmışdı. 1921-ci ildə Azərbaycan KP MK-nın sıralarında cəmi 620 nəfər qadın var idisə, 1980-ci ildə partiya üzvü olan qadınların sayı təqribən 79 min nəfərə çatmışdı.

Məlumdur ki, SSRİ-də və onun tərkib hissəsi olan Azərbaycanda hakim olan marksizm-leninizm ideologiyası millət və millətçilik məf-






humlarını mənəvi ünsürlərə dayandığı üçün rədd edirdi. Hələ K.Marks və F.Engelsə görə kapitalizm sistemi ləğv edildikdən sonra proletariatın hakimiyyəti dövründə millətlər yox olacaqdılar. Kommunist cəmiyyətləri sinifsiz olduğu kimi, millətsiz də olmalı idilər. Əslində kommunizm rus millətçiliyinin dəyişilmiş formasından başqa bir şey olmayıb, ölkənin digər xalqlarını, o cümlədən Azərbaycan xalqını da totalitar sovet millətçiliyinə çevirmək məqsədi güdürdü. Bunu dərindən bilən Heydər Əliyev əvvəlcə Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, sonra isə tam hüquqlu üzv olmasına baxmayaraq, azərbaycanlıları Sovet İttifaqında mövcud olan totalitar millətçilikdən tədricən xilas etdiyindən Azərbaycan coğrafiyasında ən böyük azərbaycansevər və millətsevər idi. Bəhs edilən bu coğrafiya azərbaycanlıların vətəni olan Azərbaycan torpağı idi. Tarixi təcrübə göstərir ki, vətənə bağlanmayan və konkret praktik işlərlə möhkəmləndirilməyən millətsevərlik xəyaldan başqa bir şey olmayıb, boş sözlər kimi havadan asılı qalır. Ümumi tarix, dil, mədəniyyət, xoşbəxtlik və bədbəxtliyi birləşdirən topluluq vətəndə kütlə halından çıxıb millət olur. Deməli, bu baxımdan millət fikrinin təməli də vətənin mövcudluğu ilə bağlıdır.

**Tarixi təcrübə göstərir ki, vətənə bağlanmayan və konkret praktik işlərlə möhkəmləndirilməyən millətsevərlik xəyaldan başqa bir şey olmayıb, boş sözlər kimi havadan asılı qalır.**

Heç əbəs deyil ki, azərbaycanlıların böyük əksəriyyəti vətən deyəndə SSRİ-ni deyil, Azərbaycanı, paytaxt deyəndə Moskvanı deyil, Bakını, rəhbər deyəndə isə L.İ.Brejnevi deyil, Heydər Əliyevi başa düşürdülər.



**Azərbaycan filosofu R.Mehdiyev yazır: "Azərbaycançılıq" xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir..."**

"Əziz Vətən", "Can Azərbaycan", "azərbaycançılıq" və s. kimi ifadələr sovet dövründə məhz həmin illərdə ictimai şüura daha çox möhkəm daxil olmuşdu. Bu coğrafiyada formalaşan güclü millətsevərlik sonradan Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdə siyasi, dövlət milliyyətçiliyinə çevrildi.

**1969-1987-ci illərdə Azərbaycanda müstəqil milli dövlət mövcud deyildi, Azərbaycan SSRi-nin ittifaq respublikalarından biri idi. Çünki milli dövlət başqa bir millət və dövlətin siyasi, hərbi, iqtisadi və hətta mədəni təsiri altında olmayan dövlətdir.**

Əslində 70-80-ci illərdə millətsevərlik azərbaycançılığa çevrilərək sağlam milliyyətçiliyin, milli birliyin bütün ünsürlərini özündə ehtiva edirdi. Azərbaycan coğrafiyasındakı millətsevərlikdə Azərbaycan ərazisi torpaq, zəmin, İslam dini ruh, azərbaycançılıq isə gövdə rolunu oynayaraq bütün vətəndaşların istək, arzu və düşüncələrini ifadə edirdi. Bunların vəhdəti olmadan xalqın istəklərinə qovuşması xəyal olaraq qalırdı.

Azərbaycan filosofu R.Mehdiyev yazır: "Azərbaycançılıq" xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir... "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi qanun və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir".

Məhz bütün sovet tarixi ərzində ilk dəfə olaraq H.Əliyevin hakimiyyəti illərində alim, şair və yazıçılar arasında böyük ruh yüksəkliyi hökm sürürdü. Onlar xalqın birliyini, vəhdətini, problemlərini, düşündürən məsələləri çəkinmədən tərənnüm edirdilər. Azərbaycan üzrə görkəmli ABŞ tədqiqatçısı Brenda Şaffer yazır ki, 60-70-ci illərdə yazıçılar və ziyalılar öz əsərləri ilə Azərbaycan mədəniyyətini və milli inkişafını hazırlamağa kömək etdilər. Onların çoxlu əsərlərində, aşıq şeirində milli kimlik və vətən anlayışları tərənnüm edilirdi. Rejim isə yalnız dekorasiya idi. Doğrudan da bir çox şair və yazıçılar üçün rejim yalnız zahiri bir görüntü idi. Məsələn, milli ruhlu şeirləri ilə seçilən görkəmli şair Bəxtiyar Vahabzadə Azərbaycan yazıçılarının qurultaylarında L.İ.Brejnev başda olmaqla Sov.İKP MK Siyasi Bürosunu qurultayın fəxri rəyasət heyətinə seçməyi təklif edir, elə həmin qurultayda da milli ruhlu çıxış edirdi. Bütün bunların hamısına H.Əliyev şərait yaradır, söylənilənlər onun gözlərinin qarşısında baş verirdi. O belə üsullardan istifadə edərək milli ruhlu ziyalıları rejimin fəsadlarından qoruyur, kommunist rəhbər olmasına baxmayaraq, özünün bütün varlığı ilə milli köklərə bağlılığını ortaya qoyurdu. Heydər Əliyev millətsevərliyi Azərbaycanı parçalamağa, küskünlüyə, incikliyə yönələn məhdud etnik deyil, respublikanı bütövləşdirmək məqsədi daşıyan siyasi, coğrafiya milliyyətçiliyi mahiyyətini daşıyaraq bu ərazidə yaşayan bütün vətəndaşların soy-kök mənsubiyyətindən asılı olmayaraq birləşərək Azərbaycan naminə çalışmalarına xidmət etmək məqsədi güdürdü. Bu isə Azərbaycanı bir çox xoşagəlməz hadisələrdən, xüsusən etnik ziddiyyətlərdən, qarşıdurmadan xilas edirdi.

H.Əliyev hakimiyyətə gələrkən Azərbaycanla əlaqələri olmayan və ya zəif olan xaricdə



yaşayan azsaylı azərbaycanlıların inkişafını istəsə və bundan ötrü ciddi addımlar atsa da, mücərrədlikdən qaçaraq, ilk növbədə daha çox gözünün qarşısında olan, rəhbərlik etdiyi böyük çoxluq təşkil edən xalqını praqmatik siyasəti ilə inkişaf etdirir, milli-mənəvi dəyərlərini qoruyaraq zənginləşdirir, qürbətdə yaşayan həmvətənlər üçün cəlbedici edirdi.

Məlumdur ki, müstəqil dövlətçilik şəraitində millətsevərlik, milli problemləri həll etmək nə qədər asandırsa, ağır sovet sistemi şəraitində onları yoluna qoymaq bundan qat-qat ağır idi. Aydındır ki, 1969-1987-ci illərdə Azərbaycanda müstəqil milli dövlət mövcud deyildi, Azərbaycan SSRİ-nin ittifaq respublikalarından biri idi. Çünki milli dövlət başqa bir millət və dövlətin siyasi, hərbi, iqtisadi və hətta mədəni təsiri altında olmayan dövlətdir. "Millət" ərəbcə ifadə olub çoxlu kütlə, əhali deməkdir. "Millət" ifadəsi latınca "nation" tayfa, xalq anlamını verir. Milləti meydana gətirən amillər - irq, ərazi, vətən birliyi kimi təbii və ya obyektiv amillərlə yanaşı dil, ədəbiyyat, sənət, tərbiyə, milli tarix və ideal birliyi kimi subyektiv və nəhayət, müstəqil bir dövlət halında təşkilatlanma və ümumi mənfəətlər kimi hüquqi, siyasi və iqtisadi amillərdir. Millət, bu üç qrup amilin nəticəsində meydana gələn qarışıq sosial və hüquqi bir gerçəklikdir. Ancaq millət yalnız irq və ərazi birliyinin, yalnız dil, tarix, ideal birliyinin, eyni zamanda yalnız siyasi, hüquqi və iqtisadi birliyin məhsulu deyil. Millət hər şeydən əvvəl, qan və soy-kök birliyidir. Damarlarında qədim zamanların qaranlıqlarına qərq olmuş atalarının qanı axan və eyni kökdən olan adamlar harada doğulmaları və yaşamalarından, hansı dövlətin vətəndaşları olmalarından asılı olmayaraq bir milləti təşkil edirlər. Millətə belə yanaşma əsasən alman baxışıdır və vaxtilə Almaniyada nasional-sosialistlərin əsaslandığı tezis idi. Bu tezisdə heç şübhəsiz, bir həqiqət anı var. Təbii ki, eyni qan və soy-kök adamları bir yerə toplayan, təbii surətdə bağlayan amildir. Lakin eyni kökdən olan bəzi millətlər heç də bir dövlətdə yaşamırlar və parçalanmış haldadırlar. Məsələn, azərbaycanlılar. Azərbaycan xalqının bir hissəsi Gürcüstanda, Rusiyada, Cənubi Azərbaycanda və başqa ölkələrdə, bir qismi isə Azərbaycan Respublikasında yaşayırdı və yaşayır.

Digər tərəfdən, soy birliyini elmi baxımdan sübut etmək xeyli dərəcədə çətin və mürəkkəb bir işdir. Çünki bəşəriyyətin zaman-zaman üzləşdiyi sonsuz hadisələr burulğanında

**Türkçülüyün əsaslarını yaradan Z.Göyalpa görə "millət nə irqə, nə qövmə, nə coğrafiyaya, nə siyasətə, nə də iradəyə bağlı bir topludur. Millət dil, din, əxlaq və bütün gözəl sənətlər baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir".**

yer üzündə saf qanını qorumuş millət tapmaq mümkün deyil. Məsələn, XIX əsrdə Parisdə diplomatlar hazırlayan Şərq məktəbində deyirdilər ki, hər hansı bir rusun damarını kəssən oradan türk, tatar qanı axar. Deməli, irq və millət heç də eyni deyil. İrq millətə nisbətən daha genişdir. İrqin coğrafiyası daha böyükdür. Millətin coğrafiyası isə məhduddur, müəyyən bir dövlətin sərhədlərinə sığışır. Millət bu geniş topluluq içərisindən çıxaraq müəyyən bir qrupu təşkil edir. İrq bioloji, millət isə tarixi-siyasi məfhumdur. Milləti yaratmaqda qan birliyi əhəmiyyətli bir amildirsə, bu birliyin həqiqətən mövcud olması üçün qənaət və inanc lazımdır. Azərbaycan xalqında 1969-1987-ci illərdə milli inancı, qənaəti gücləndirən və inkişaf etdirən məhz H.Əliyev oldu. O, azərbaycanlıların sovet dövründə itirilmiş özünəinamını bərpa edərək onlarda milli ruh yüksəkliyini və qüvvəsinə arxalanmaq hissini gücləndirdi. Hətta ABŞ tarixçiləri də qeyd edirlər ki, H.Əliyev 70-80-ci illərdə Azərbaycan xalqında nikbinlik və özünə inam yaratdı.

**Millət dili yetişdirir, yoxsa dil milləti? Dil sosial bir reallıq olub daha çox tarixlə bağlıdır. Ona görə dil də millətin yaranması üçün əsas deyil. Məsələn, ingiliscə danışan adamların heç də hamısı ingilis deyil. 70-ci illərdə Azərbaycan dili Azərbaycanda yaşayan insanları birləşdirən başlıca vasitələrdən biri idi.**

Türkçülüyün əsaslarını yaradan Z.Göyalpa görə "millət nə irqə, nə qövmə, nə coğrafiyaya, nə siyasətə, nə də iradəyə bağlı bir topludur. Millət dil, din, əxlaq və bütün gözəl sənətlər baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir".

Məlumdur ki, tarixən ortaq dil millətin varlığında mühüm rol oynayıb. İlk baxışda millət eyni dildə danışan insanlardan böyükdür və eyni dildə danışan insanlardan meydana gəlmiş bir qrupdur. Eyni dildə danışan insanların eyni irqdən olduğunu da söyləmək olar. Qeyd etmək lazımdır ki, vaxtilə alman irqçiliyinin əsaslarından biri də məhz bu olmuşdur. Ortaq dilin millətin birliyinin ən güclü əsaslarından biri olduğu şəksizdir.

Ancaq soruşulur: millət dili yetişdirir, yoxsa dil milləti? Dil sosial bir reallıq olub daha çox tarixlə bağlıdır. Ona görə dil də millətin yaranması üçün əsas deyil. Məsələn, ingiliscə



**Eyni dinə bağlılığın adamların bir-biri ilə birləşməsində böyük rolu olduğu şəksizdir. Böyük səmavi dinlər olan iudaizm, xristianlıq və islam mahiyyətləri etibarı ilə onlara itaət edənləri bir mərkəzdə birləşdirirlər. Orta əsrlərdən etibarən azərbaycançılığın qorunmasında, Azərbaycan torpaqları üzərində yaşayan aborigen xalq olan azərbaycanlıların varlığının mühafizəsi və inkişafında, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsində, sonralar isə millətin formalaşmasında, bütövləşməsində islam dini əsaslı rol oynayıb.**

danışan adamların heç də hamısı ingilis deyil.

70-ci illərdə Azərbaycan dili Azərbaycanda yaşayan insanları birləşdirən başlıca vasitələrdən biri idi.

Milləti var edən ən başlıca amil ortaq vətən və torpaq hissləridir. Ortaq torpaq milləti təşkil edən ən təbii və maddi amildir. Millət ortaq vətən torpağı üzərində doğulub yaşayan insanlardan meydana gəlmiş bir qrupdur. Lakin eyni torpaqlarda yaşayan bütün insanlar bəzən vahid millətdə qaynayıb qarışmaya da bilərlər.

Eyni dinə bağlılığın adamların bir-biri ilə birləşməsində böyük rolu olduğu şəksizdir. Böyük səmavi dinlər olan iudaizm, xristianlıq və İslam mahiyyətləri etibarı ilə onlara itaət edənləri bir mərkəzdə birləşdirirlər. Orta əsrlərdən etibarən azərbaycançılığın qorunmasında. Azərbaycan torpaqları üzərində yaşayan aborigen xalq olan azərbaycanlıların varlığının mühafizəsi və inkişafında, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsində, sonralar isə millətin formalaşmasında, bütövləşməsində İslam dini əsaslı rol oynayıb.

Aydındır ki, millətin var olmasında yuxarıda göstərilən obyektiv amillərin mövcudluğu təkbaşına və ayrı-ayrılıqda qətiyyən əsas deyil. Deyildiyi kimi, eyni kökdən olanların heç də hamısı bir millət topluluğu içində yaşamırlar. Bununla belə, eyni din bayrağı altında yan-yana yaşayan adamların da hamısı eyni millət birliyinə də mənsub deyil. Məsələn, Qərb dünyasında yaşayan xalqlar xristian olduqları halda ayrı-ayrı millət topluluqlarına bölünmüş halda yaşayırlar. Yaxın və Orta Şərqin əhalisinin çoxu müsəlman olduğu halda müxtəlif millətlərə ayrılıblar. Deməli, millətin var olmasında yalnız obyektiv təsirlərin mövcudluğu yetərli deyil. Bu məsələdə subyektiv, yəni mənəvi amillər, birlikdə yaşama arzusu və iradəsi ön plana çıxır. Başqa sözlə ifadə edilərsə, millət - birlikdə yaşama arzu və iradəsi ilə birləşmiş insanların qrupudur. Yalnız bu halda insanlar bir millət olurlar. Millət mənəvi və ruhi birlikdir. Millət bir-birini sevən, könül bağlayan insanların yaratdığı şüurlu bir topluluqdur. Məhz H.Əliyevin hakimiyyəti illərində Azərbaycan coğrafiyasında yaşayanların mənəvi birliyinə daha çox nail olundu. Məlumdur ki, mənəvi birliyin doğması üçün əlverişli zəmin lazımdır. Bu zəmin ortaq vətən, dil, soy, din, tarix kimi obyektiv amillərdir. Millətin millət olması üçün subyektiv və obyektiv amillərin bir-birini tamamlaması vacibdir. Bu halda siyasi amilin təsiri də güclü olur. Milləti siyasi qüvvə birləşdirir. 70-80-ci illərdə H.Əliyev və başçılıq etdiyi Azərbaycan rəhbərliyi bu siyasi qüvvənin nüvəsini təşkil edirdi. Kommunist olmalarına baxmayaraq, onlar millətin problemlərini həll edir, tərəqqiyə yönələn qərarlar qəbul edirdilər. Onlarda milli dövlətçilik baxışları, milli təəssübkeşlik var idi. Lakin millət siyasi qüvvənin əsiri deyil, mayası və maddəsidir. Elə buna görə də hakimiyyəti illərində H.Əliyev gücünü Azərbaycan xalqından alırdı. Məlumdur ki, zülm olan yerdə könül birliyi halında millət yaranmır. Çünki ədalətsiz idarəçilik insanları bir-birindən ayırır, soyuqluq, hətta düşmənçilik yaradır. Ədalətsizcəsinə idarə edilən bir məmləkət orada yaşayan millətin evinə deyil, xalqlar həbsxanasına çevrilir. Fəaliyyətində "Qoy ədalət zəfər çalsın" şüarını əsas götürən H.Əliyevin dönəmində Azərbaycan bu ərazidə yaşayanlar üçün millət evinə çevrilmişdi.

**Milləti var edən ən başlıca amil ortaq vətən və torpaq hissləridir. Ortaq torpaq milləti təşkil edən ən təbii və maddi amildir. Millət ortaq vətən torpağı üzərində doğulub yaşayan insanlardan meydana gəlmiş bir qrupdur.**



**Milli dövlətlərin yaradılmasında millətçilik müstəsna dərəcədə müsbət rol oynamışdı. Sosializm cəmiyyətində Kommunist Partiyasının və marksist-leninçi ideologiyanın şəriksiz hökmran olduğu bir şəraitdə nəinki millətçilik, hətta millətsevərlik xeyli dərəcədə çətin və ağır nəticələrə gətirə biləcək bir iş idi.**

Millət sevgisi və milli duyğu tarixdə ən mühüm hadisələrdən biri olub, millətlərin yaranması ilə eyni vaxtda doğub. Milliyyətçilik fərdi milli qrupa bağlayan və eyni millət tipinə mənsub olma duyğusundan doğan təbii bir hissdir. Buna görə də H.Əliyevin fəaliyyət istiqamətlərindən biri bu təbii hissi şüurlandırmaq və qüvvətləndirmək üzrə milli olan şeyləri sevmək, inkişaf etdirməkdən ibarət idi. Millətsevərlik ən geniş anlamda hər bir şəxsin mənsub olduğu millətə sevgi, məhəbbət və hörmət hissləri ilə bağlılıq duyğusudur. Bu bağlılıq millətin dilinə, dininə, əxlaqına, maddi və mənəvi mədəniyyət dəyərlərinə dərin hörmət bəsləmək, millətin varlığını inkişaf etdirmək, qüdrətini artırmaq, vətəni qorumaq naminə hər cür fədakarlığa hazır olmaq, öz milləti üçün böyük mənfəətlər qazanmağa çalışmaqdır. H.Əliyev həmin iş uğrunda əzmlə, yorulmaq bilmədən çalışan bir rəhbər idi. Onun fəaliyyəti millətə xidmətlə, Azərbaycanın və azərbaycanlıların mənfəəti naminə çalışma ilə səciyyələnirdi.

Məlumdur ki, yeni ictimai münasibətlərin - kapitalizmin yarandığı şəraitdə meydana çıxan millətçiliyin iqtisadi əsasını istehsal üzərində xüsusi mülkiyyət təşkil edirdi. Milli dövlətlərin yaradılmasında millətçilik müstəsna dərəcədə müsbət rol oynamışdı. Sosializm cəmiyyətində Kommunist Partiyasının və marksist-leninçi ideologiyanın şəriksiz hökmran olduğu bir şəraitdə nəinki millətçilik, hətta millətsevərlik xeyli dərəcədə çətin və ağır nəticələrə

gətirə biləcək bir iş idi. Xüsusən, rəhbər partiya və sovet orqanlarında açıq-aşkar millətsevərlik, xalqda milli duyğuları gücləndirmək yolverilməz sayılırdı. Bu istiqamətdə ən xırda təzahürün qarşısı mərkəz tərəfindən dərhal və amansızlıqla alınırdı. Sovet sistemi şəraitində və kommunist ideologiyasına görə millətçilik milli məsələdə burjua ideologiyası, siyasəti və psixologiyası kimi qiymətləndirilirdi. Bütün bunları yaxşı başa düşən H.Əliyev kommunist ideologiyasının hökmran olduğu şəraitdə millətsevərlik baxışlarını, milli duyğuları gücləndirməyi şüarlarla deyil, xeyli ehtiyatla, diqqətlə, praktik işlərlə həyata keçirirdi.

> **Məlumdur ki, milliyyətçilik doktrina-ideoloji və sosioloji milliyyətçiliyə bölünür. Doktrina-ideoloji milliyyətçilik irq, mədəniyyət, din, coğrafiya və totalitar milliyyətçiliyinə ayrılır.**

Məlumdur ki, milliyyətçilik doktrina-ideoloji və sosioloji milliyyətçiliyə bölünür. Doktrina-ideoloji milliyyətçilik irq, mədəniyyət, din, coğrafiya və totalitar milliyyətçiliyinə ayrılır.

Aydındır ki, sosioloji baxımdan milliyyətçilik və millətsevərlik bütün insan topluluqlarında vardır. Sosioloqlar sübut ediblər ki, millətlərin yaşaya bilməsi, inkişafı üçün ən vacib və güclü təsir fərdlərin mənsub olduqları millətə bağlılığı və sədaqətidir. Millətin millət kimi yaşamasını saxlayan, digər millətlər içərisində əriyib yox olmasına əngəl olan başlıca duyğu milli hisslərdir. Milli hisslər millətin mövcud olması uğrunda mübarizənin bir təzahürüdür. H.Əliyev kommunist rəhbər olaraq, bir tərəfdən, yüksək kürsülərdən sovet xalqlarının birliyindən, vahid sovet xalqından danışır, işdə isə Azərbaycan xalqının milli hisslərinin yaşaması və inkişaf etməsi üçün əzmlə çalışırdı. Məlumdur ki, millətlərin var olmaq əzmi və iradəsi "milli şüur", "millət duyğusu" və ya "millətçilik" adlarını alır. Məhz H.Əliyevin sayəsində bu hiss və duyğular Azərbaycan xalqı, xüsusən, ziyalıları arasında nəinki hökmran olmuş, hətta partiya və sovet aparatında tədricən möhkəmlənməyə başlamışdı. Bununla belə, o, aşırı millətçiliyin əleyhinə idi.

Qeyd etmək lazımdır ki, XX əsrdə müxtəlif ölkələrdə müəyyən qruplar "milli qüvvələr", "millətçilər" adına iddia edirdilər. Məsələn, Almaniyada Bavariya pivəxanalarında ölkənin problemlərini öz əqidə yoldaşları ilə qızğınlıqla müzakirə edən A.Hitler özünü və mənsub olduğu siyasi təşkilatı "yeganə milli qüvvə", hakimiyyətdə oturub mövcud şəraitdə, praqmatik olaraq millətin problemlərini həll etməyə çalışanları isə "xəyanətkar", "satqın", "alman xalqının mənafelərini müdafiə etməyən" adlandırırdı. Cəlbedici sosial demaqoqluq və millətçilik şüarları ilə seçicilərin səsini alaraq hakimiyyətə gələn nasional-sosialistlər bir müddət sonra İkinci Dünya müharibəsini törətməklə alman xalqına olmazın müsibətlər gətirdilər. Məhz Hitlerin və rəhbərlik etdiyi siyasi təşkilatın avantüraları ucbatından müharibənin yekununda məğlub edilmiş ölkə bölüşdürüldü, əhalinin sayı azaldı, xalq bədbəxtliklərə düçar oldu. Bundan fərqli olaraq, millətçilik şüarlarını qabartmadan Qərbi Almaniyada hakimiyyətə gələn K.Adenauer isə Hitlerin siyasətinin ağır nəticələrini praqmatik fəaliyyəti ilə aradan qaldırmağa başladı. Eyni sözləri Fransa müqavimət hərəkatının rəhbəri, İkinci Dünya müharibəsi dövründə, 1944-cü ildə Bakıdan keçərək Moskvaya səfər etmiş, sonralar beşinci respublikanın prezidenti olmuş Şarl de Qoll və başqa görkəmli şəxsiyyətlərin fəaliyyəti haqqında da söyləmək olar. Bir sıra digər siyasi və dövlət xadimləri millətçi şüarları söyləmədən xalqının problemlərini həll etməyə çalışırdılar. Belə nümunələri Şərqin timsalında da göstərmək olar. Osmanlı dövlətində Birinci Dünya müharibəsi illərində gənc türklərin irq millətçiliyinə, turançılığa, pantürkizmə əsaslanan siyasət yeritməsi bu ölkənin coğrafi-siyasi sərhədlərindən kənarda yaşayan türklərin və müsəlmanların oyanışında mühüm rol oynasa da, bəzi müxaliflər tərəfindən Osmanlının çöküşünün səbəblərindən biri, "xəyali turançılıq" kimi dəyərləndirilirdi. Ümumiyyətlə, irq millətçiliyi mürəkkəb və qorxulu olub, onu irəli sürənlərin düşmənlərinin sayını artırır, hətta vahid bir ölkəni parçalanmaq təhlükəsi ilə üz-üzə qoyur. Avropada baş verənlərə bənzər misalları Azərbaycan təcrübəsində də göstərmək olar. Sovet dövründə çayxanalarda milli problemlərdən xəlvəti olaraq, danışanlar özlərini əsl "milli qüvvə", hakimiyyətdə oturaraq millətin problemlərini tarixi şəraitə uyğun olaraq min bir çətinliklə həll edən kommunistləri isə bəzən "Moskvaya satılanlar", "xəyanətkarlar" adlandırırdılar. Amma soruşulur: çayxanalarda, məhdud dairənin nümayəndələrinin iştirak etdiyi məclislərdə əyləşərək millətin heç bir probleminin həllinə kömək göstərməyən bu söhbətləri etmək asan idi, yoxsa ağır sovet sistemi şəraitində Moskva ilə birtəhər dil taparaq birgə iş şəraitində çox incə üsullarla millətin problemlərini həll etmək? Əlbəttə, cavab aydındır. 70-80-ci illərdə bir qrup adamın çayxanalarda və bəzi ictimai yerlərdə ümummilli məsələlərdən danışması dövlət hakimiyyət orqanları üçün elə bir ciddi təhlükə törətmirdi. Çünki belə söhbətlərin millətə təsir imkanı məhdud, səmərəsi isə az idi. Bununla belə, həmin söhbətlər əhəmiyyətsiz də deyildi. Heç şübhəsiz, həmin illərdə millətin problemləri rəsmi strukturlar tərəfindən kabinetlərdə həll edilirdi. Belə şəraitdə respublikada hakimiyyətdə oturanların aşkar millətçiliyi Moskva üçün daha təhlükəli olduğundan bağışlanmaz idi. Həmin şəxslər nəinki qazandıqları hər şeyi, həmçinin perspektivi itirmək təhlükəsi ilə üzləşərdilər.

> **Millət sevgisi və milli duyğu tarixdə ən mühüm hadisələrdən biri olub, millətlərin yaranması ilə eyni vaxtda doğub. Milliyyətçilik fərdi milli qrupa bağlayan və eyni millət tipinə mənsub olma duyğusundan doğan təbii bir hissdir. Buna görə də H.Əliyevin fəaliyyət istiqamətlərindən biri bu təbii hissi şüurlandırmaq və qüvvətləndirmək üzrə milli olan şeyləri sevmək, inkişaf etdirməkdən ibarət idi.**



Qeyd etmək lazımdır ki, ölkədə DTK hakim olduğundan hər bir hadisə ilə bağlı ictimai rəy ciddi şəkildə öyrənilirdi. Məsələn, hətta Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevin SSRİ-nin yaradılmasının 50 illiyi ilə bağlı etdiyi mə-




ruzəsi haqqında ictimai rəy barədə DTK sədri Y.Andropov 1973-cü il 10 yanvar tarixli 56-A N-li məxfi məktubunda MK-ya məlumat vermişdi. Belə şəraitdə H.Əliyev Azərbaycanda güclənən millətsevərlik hallarından Moskvanın xəbər tutmamasına çalışır, problemi özü sakitcə yoluna qoyurdu. Məsələn, 1976-cı il may ayının 1-də Bakıda keçirilən nümayiş zamanı Azərbaycanın üçrəngli, ay-ulduzlu bayrağını qaldıran antisovet təşkilat "Milliyyət"in üzvü olan şəxslər həbs olunsalar da, tərbiyələndirici söhbətdən sonra azad edildilər.

**Ölkədə DTK hakim olduğundan hər bir hadisə ilə bağlı ictimai rəy ciddi şəkildə öyrənilirdi. Məsələn, hətta Sov.YKP MK-nyn Baş katibi L.Y.Brejnevin SSRİ-nin yaradılmasının 50 illiyi ilə bağlı etdiyi məruzəsi haqqında ictimai rəy barədə DTK sədri Y.Andropov 1973-cü il 10 yanvar tarixli 56-A N-li məxfi məktubunda MK-ya məlumat vermişdi.**

Qeyd etmək lazımdır ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin yekun aktını 1975-ci il avqustun 1-də sovet rəhbəri imzaladıqdan sonra hakimiyyət ölkədə yadfikirliliyin, dissidentlərin yaranmasında, yaransa da, onun geniş yayılmasında maraqlı deyildi. Belə təzahürlər çox vaxt ört-basdır edilir, həmin şəxslərlə söhbətlər aparılır və tərbiyələndirilirdilər.

70-80-ci illərdə Azərbaycan rəhbərliyi, MK-da ideologiya sahəsinə başçılıq edənlər, DTK-nın azərbaycanlı rəhbərliyi respublikada rast gəlinən millətçilik meyillərini, antisovet təzahürləri Moskvanın ağır təzyiqlərinə baxmayaraq, mərkəzdən gizlətməyə çalışır və həmin şəxsləri ələ vermirdilər. Nəticədə Azərbaycanın adı antisovet təzahürlərə həsr olunmuş sənədlərə, arayışlara düşmürdü. Məsələn, SSRİ DTK sədri V.Çebrikovun adından 1987-ci il 26 fevral tarixdə Sov.İKP MK-ya yazılan 346-E N-li tam məxfi "DTK orqanlarının 1986-cı ildə anonim antisovet materialların müəlliflərini axtarması işinin nəticələri haqqında" məruzəsində deyilirdi ki, göstərilən ildə ölkə ərazisində 1519 müəllif tərəfindən 11480 anonim material hazırlanıb və yayılıb. Onun 9520-si vərəqə, 1960-ı məktub olub, divarlara 879 bədxah yazılar yazılıb. 1985-ci illə müqayisədə belə yazılar və materiallar 143, yayılan vərəqələr isə 2683 nüsxə artmışdı.

Məruzədən aydın olur ki, antisovet materialların ən geniş yayıldığı yer Qazaxıstan idi. Bu da əsasən Qazaxıstan KP MK plenumunda D.Kunayevin vəzifəsindən azad edilib, yerinə Kolbinin təyin edilməsi ilə əlaqələndirilirdi. Belə bir fakt cəlbedicidir ki, 1986-cı il dekabr ayının 17-dən 31-dək 780 vərəqənin, 3 məktubun və 76 antirus istiqamətli yazıların yayılması üçün 128 hadisə qeydə alınmışdı. Anonim təzahürlərin ən çox yayıldığı ərazi Ukrayna, Qazaxıstan, Latviya, Belorusiya, Moskva və Leninqrad şəhərləri idi. Həyata keçirilən tədbirlər nəticəsində anonim antisovet materialların müəllifi olan 1237 nəfər, o cümlədən dövlət və partiya xadimlərinə qarşı terrorçuluğa səsləyən 28 nəfər, yerli rəhbər işçiləri fiziki cəzalandırmaqla hədələyən 96 nəfər müəyyənləşdirilmişdi. Axtarılan müəlliflərin 26.6 faizi tələbələr, məktəb və peşə texniki məktəblərin şagirdləri, 19.4 faizi fəhlə, 19.3 faizi qulluqçu, 15.3 faizi pensiyaçı, 2.6 faizi kolxozçu, 16.8 faizi konkret işi olmayanlar və əvvəllər həbsdə olanlar idi. Axtarılanların 88 nəfəri Sov.İKP üzvü və üzvlüyünə namizəd, 195-i komsomolçu idi. Antisovet materialların hazırlanmasına əsasən aşağıdakı amillər təsir etmişdi: 10-u düşmənçilik mövqeyi, 27-si millətçilik əhvali-ruhiyyəsi, 390-ı rəqibə ideoloji təxribatla təsir etmək və siyasi səriştəsizlik, 212-si xuliqanlıq və şəxsi mənafelər, 35-i yerli vəzifəli şəxslərin qeyri-qanuni hərəkətləri, 206-sı psixi xəstəliklə bağlı idi. Digər 357 müəllifin anonim materialları hazırlanmasının motivləri aydın deyildi. Üzə çıxarılan şəxslərə profilaktik və tərbiyəvi xarakterli tədbirlər tətbiq olunmuşdu.

Qeyd etmək lazımdır ki, Azərbaycanda millətçilik təzahürləri genişlənsə də, arayışda əksini tapmamışdı. Belə şəraitdə hakimiyyətdə oturaraq millətin problemlərini Moskvanı qıcıqlandırmadan ustalıqla həll etmək böyük məharət tələb edirdi.

* * *

Beləliklə, H.Əliyev hakimiyyətə gələrkən Azərbaycan cəmiyyətinin başlıca problemlərindən biri xalqla hakimiyyət arasında uçurumun mövcudluğu, siyasi hakimiyyət daxilində yekdilliyin olmaması idi. Hakimiyyətdə müxtəlif yüksək vəzifələr tutan şəxslər arasında hökm sürən intriqalar nəticəsində iş yerimirdi, milləti düşündürən başlıca problemlər həll edilmirdi, nəticədə ziyalılar hakimiyyətlə əməkdaşlıqdan uzaq qaçırdılar. Yaranmış vəziyyət xalqın bir sıra köklü məsələlərinin həllinə nəinki mane olur, hətta onu daha da dərinləşdirir, xalq və rəhbərlik haqqında Moskvada mənfi fikrin formalaşmasına təsir edirdi.



H.Əliyev hakimiyyətə gəldikdən sonra bu problemin həllinə qətiyyətlə girişdi. O özünün gərgin fəaliyyəti ilə azərbaycanlılar arasında milli birliyə, siyasi hakimiyyət daxilində yekdilliyə, xalqla hakimiyyət arasında uçurumun aradan qaldırılmasına uğurla nail oldu. Azərbaycanlıları yüksək dövlət, partiya və təsərrüfat strukturlarında vəzifələrə gətirmək üçün onların Kommunist Partiyası sıralarına daha çox daxil olmasına çalışırdı. H.Əliyev xüsusi xidmət orqanlarına azərbaycanlı kadrları yerləşdirməklə, onlara rütbələr verdirməklə, siyasi hakimiyyəti möhkəmləndirməklə, azərbaycanlı qadınları müxtəlif vəzifələrdə irəli çəkməklə bu məqsədlərinə uğurla çatır, milli ruhu qaldırır, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşları vahid amal ətrafında birləşdirir, sovet hakimiyyətinin əvvəlki illərində azərbaycanlıların qırılmış inamını bərpa edərək onların vətənpərvərlik və ana torpaq sevgisini gücləndirirdi. Onun hakimiyyəti illərində azərbaycanlıların böyük əksəriyyəti vətən deyərkən Azərbaycanı, paytaxt deyərkən Bakını, rəhbər deyərkən Heydər Əliyevi nəzərdə tuturdu.

H.Əliyevin ən böyük tarixi xidmətlərindən biri Azərbaycan xalqının birliyinə, siyasi hakimiyyət daxilində yekdilliyə, hakimiyyətlə xalq arasında vəhdətə nail olması idi. Məlumdur ki, 1920-ci ilin aprelində Azərbaycan bir dövlət və xalq kimi bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra yeridilən sovet siyasəti onu xalqdan kütləyə, manqurta çevirməyə çalışır, bəzən buna nail də olurdu. Lakin bütün təzyiqlərə baxmayaraq, azərbaycanlılar SSRİ dağılanda bütöv bir xalq, millət olaraq imperiyadan ayrıldılar.

H.Əliyev xalqa münasibətdə yaxın, isti, xeyirxah, məmurlara, məsul partiya və sovet işçilərinə münasibətdə isə qayğıkeş olmaqla bərabər, mürəkkəb, sərt, soyuq və tələbkar idi. Bu isə digər sahələrdə onun millət naminə çalışmalarında uğur qazanmasına kömək edirdi. Bütün əvvəlki rəhbərlərin bacarmadığı işin öhdəsindən məharətlə gələn H.Əliyev Azərbaycan xalqını sıx birləşdirən qeyri-adi istedadlı siyasi, dövlət və partiya xadimi idi. Əslində xalqı birləşdirməklə o, azərbaycanlılar içərisində kommunist rəhbərdən daha çox, milli lider olaraq qəbul edilirdi.

# Dünya liderləri Heydər Əliyev haqqında



Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc BUŞ,**
Amerika Birləşmiş Ştatlarının Prezidenti.



Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

Onun vəfatı Müstəqil Dövlətlər Birliyi, bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

**Vladimir PUTİN,**
Rusiya Federasiyasının Prezidenti.



Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

**Jak ŞİRAK,**
Fransa Respublikasının Prezidenti.

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımdakı görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

**Toni BLEYER,**
Böyük Britaniyanın Baş Naziri.




ABUNƏLİK:
(+994 12) 530 85 81 (81/83)

Tumurcuq
Aylıq Uşaq Qəzeti

Sən
Vətənin Sabahısan!









Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişafını və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.

**Əhməd Necdət SEZƏR,**
Türkiyə Respublikasının Prezidenti.




Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

**Nursultan NAZARBAYEV,**
Qazaxıstan Respublikasının Prezidenti.



Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

**Kraliça II ELİZABET**



Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

**Rəcəb Tayyib ƏRDOĞAN,**
Türkiyə Respublikasının Baş Naziri.



Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

**İslam KƏRİMOV,**
Özbəkistan Respublikasının Prezidenti.



Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**II İohan Pavel,** Roma papası.

YUBİLEY 90 HEYDƏR ƏLİYEV

Azərbaycanın təhsil ictimaiyyəti Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması – Respublika Günü ərəfəsində müasir müstəqil Azərbaycanın qurucusu, Türk dünyasının görkəmli siyasi, ictimai xadimi, dünya siyasətində öz dəst-xətti olan Ümummilli Liderimiz Heydər Əliyevin və onun vəfalı ömür-gün yoldaşı, görkəmli alim, qayğıkeş insan, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 90-cı ildönümünü ümumxalq bayramı səviyyəsində qeyd etdi və biz hamımız bu bayramın ən fəal iştirakçısı olduq. Heydər Əliyev bizim şirkətin – "Çağ" Öyrətim şirkətinin qurulmasında ilk imzası olan bir qədirşünas insan olmaqla yanaşı bizim təhsil müəssisələrimizin də Fəxri Baş Müəllimi, bizim qayğıkeş müəllimimiz, rəhbərimiz idi. O, öz diqqəti və qayğısı ilə bizə həmişə ən dəyərli məsləhətləri ilə yardım etmiş, bizim inkişafımızın qayğısına qalmışdır. Bu gün məktəblilərimizin dünya fənn olimpiadalarından Azərbaycana gətirdiyi 550-ə yaxın qızıl, gümüş və bürünc medallar, məzunlarımızın dünyanın 30-dan çox ölkəsində təhsil ala bilmələri, bu gün ölkəmizin iqtisadi, ictimai həyatında fəal iştirak etmələri məhz Heydər Əliyevin xidmətlərinin meyvələridir. Buna görə də bu gün, 2012-2013-cü dərs ilinin sonuna yaxınlaşarkən onu – Ümummilli Liderimiz Heydər Əlirza oğlu Əliyevi bir daha şükranla yad edir, şagirdlərimizə, məzunlarımıza, müəllimlərimizə onun kimi yaşamağı, onun kimi oxumağı, onun kimi işləməyi tövsiyə edirik.

*Mesut KURNAZ,*
*Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi*


SOCAR
AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ

PSG
PRACTICAL SOLUTIONS GROUP

"ÇAĞ" ÖYRƏTİM İŞLƏTMƏLƏRİ

**15**
il ərzində :

**17**
Beynəlxalq və yerli mükafat

**42**
Beynəlxalq və yerli idman tədbirlərinə sponsorluq

**80**
Yanacaqdoldurma və Qazdoldurma məntəqəsi

**3000**
Əməkdaş

**4000**
Korporativ müştəri

2012
2011
2010
2009
2008
2007
2006
2005
2004
2003
2002
2001
2000
1999
1998
1997

AZPETROL

Ünvan: Mirzə Mənsur küçəsi 63/65,
Az1004, Baku, Azerbaijan
Tel: (99412) 497 69 75, 497 69 74
Fax: (99412) 497 68 64
E-mail: azpetrol@azpetrol.com
www.azpetrol.com




Ar 2014/237

97937